AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*  *№ 6 (1406), 5 - 11 fevral 2019-cu il*  *Qəzet 2001-ci ildən çıxır.*

## Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.20.4-cü yarımbəndində göstərilmiş məbləğin 10 933 900 (on milyon doqquz yüz otuz üç min doqquz yüz) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 fevral 2019-cu il.*



## Mükafatçılarla Gənclər və İdman Nazirliyində görüş təşkil edilib

Parisdə keçirilmiş Karate1 Premyer Liqa turnirində, Təl-Əvivdə cüdo üzrə Qran-Pridə və İsveçrənin Sankt-Moritz şəhərində qış polosu üzrə ənənəvi "Snow Polo World Cup St. Moritz" dünya kuboku turnirində uğurla çıxış etmiş idmançılarla yanvarın 30-da Gənclər və İdman Nazirliyində görüş olub.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov tədbirdə çıxış edərək idmanın cüdo, karate və digər növləri üzrə lisenziya xarakterli yarışlara start verildiyini və idmançılarımızın nüfuzlu turnirlərdə iştirak etdiklərini bildirib. 2019-cu ilin idman ictimaiyyəti üçün həlledici illərdən biri olduğunu qeyd edən nazir müavini qarşıda idmançılarımızı "Minsk 2019" ikinci Avropa Oyunlarının və Tokio -2020 XXXII Yay Olimpiya Oyunlarına lisenziya turnirlərinin gözlədiyini vurğulayıb: "Azərbaycanda dövlət tərəfindən idmana göstərilən diqqət və qayğı yüksək nəticələrin qazanılması üçün geniş imkan yaradır. Ölkəmizdə təkcə may ayında səkkiz beynəlxalq yarış keçiriləcək ki, bu da Azərbaycanın idman ölkəsi olmasının bariz nümunəsidir. Azərbaycanda cüdo inkişaf edir və cüdoçularımızın növbəti yarışlarda daha böyük nailiyyətlər əldə edəcəklərinə inanırıq. Karateçi Rafael Ağayev ötən illər ərzində çox böyük uğurlara imza atıb. Onun Tokio 2020-də də öz sözünü deyəcəyinə əminik. Karatenin Olimpiya Oyunlarının proqramına daxil edilməsi sevindirici haldır".

*(ardı 2-ci səhifədə)*

## Dünya cüdoçuları Parisə toplaşır

Fevralın 9-da Parisdə "Böyük dəbilqə 2019" turniri start götürəcək. 100 ölkədən 625 cüdoçunun (369 kişi, 256 qadın) mübarizə aparacağı turnirdə Azərbaycanı kişilərin yarışında 13, qadınlarda isə 6 tatami ustası təmsil edəcək.

Yarışda kişi cüdoçulardan Rəşad Yelkiyev, Tofiq Məmmədov (60 kq), Orxan Səfərov və Nicat Şıxəlizadə (66 kq), Hidayət Heydərov, Rüfət Məmmədov (73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev, Tural Səfquliyev (90 kq), Elmar Qasımov, Zelim Kotsiyev (100 kq), Şahin Qəhrəmanov, Uşangi Kokauri (+100 kq) mübarizə aparacaqlar. Qadın idmançılardan isə Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva, Buyankşiq Purevsuren (52 kq), İçinkorlo Munxtsedev (57 kq) və İrina Kindzerska (+78 kq) qüvvələrini sınayacaqlar.




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## "Arpaçay"da gələcəyin yeniyetmə karateçiləri yetişir

Səh. 4

## Olimpizm

### Müvəqqəti pavilyonlar Oyunlarının zəngin irsinə xidmət göstərəcək

Minsk Şəhər İcraiyyə Komitəsinin idman və turizm şöbəsinin fiqurlu konkisürmə üzrə Olimpiya Ehtiyatları İxtisaslaşmış Uşaq-Gənclər İdman Məktəbinin əsas meydançasına əlavə olaraq bir neçə yeni oyun və idman zalı quraşdırılacaq. Yeni istifadəyə veriləcək obyektlərdə "Minsk 2019"un rəsmi iştirakçılarına iaşə xidmətinin göstəriləcəyi müvəqqəti pavilyonlar yerləşəcək.

Ümumilikdə, əsas arenada mətbəx avadanlığının yerləşdirilməsi, kommunikasiya xətləri, eləcə də, idmançılar üçün qidanın hazırlanması təmin olunacaq. Əlavə edilmiş pavilyonda isə 2 min oturacağı olan yeməkxana və ərzaq məhsullarının saxlanılması üçün soyuducular yerləşdiriləcək. İkinci Avropa Oyunlarından sonra pavilyon fiqurlu konkisürmə üzrə məktəbin balansına veriləcək.

Pavilyon və ümumilikdə, yarışlar üçün inşa edilən idman obyektləri ikinci Avropa Oyunlarının zəngin irsi kimi gələcək nəsillərin sağlamlığına, bədən tərbiyəsi və idmanın inkişafına xidmət edəcək.

### Rusiya III Avropa Oyunlarına ev sahibliyi iddiasındadır

Rusiya Olimpiya Komitəsinin (ROK) prezidenti Stanislav Pozdnyakov ölkəsinin 2023-cü ildə keçiriləcək III Avropa Oyunlarına ev sahibliyi etmək arzusunda olduğunu bəyan edib. Bundan əvvəl isə Kazan şəhəri bu arzuda olduğunu bildirmişdi.

"Biz III Avropa Oyunlarına ev sahibliyi etmək istəyirik və namizədlik uğrunda mübarizəyə qoşuluruq. Yarışların hansı şəhərdə keçiriləcəyi bu il Minskdə bəlli olacaq", - deyə ROK prezidenti deyib.

Xatırladaq ki, I Avropa Oyunlarına 2015-ci ildə Azərbaycan ev sahibliyi edib. II Avropa Oyunları isə bu il Belarusun Minsk şəhərində təşkil ediləcək.

### Çin rəhbəri "yaşıl" olimpiada təşkil edəcək

Çin Xalq Respublikasının sədri Si Tzinpin Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxla görüşündə dopinqə mənfi münasibətindən danışıb.

"Ölkəmizdə dopinqə münasibət birmənalı olaraq mənfidir və biz hər vəchlə onun qarşısını almağa çalışırıq. Ölkə rəhbəri kimi qızıl və ya gümüş medal yerinə təmiz çinli idmançılara üstünlük verirəm.

Məhz idmanın sayəsində Çində insanlar sağlam həyat yaşayırlar. Biz gələcəkdə "yaşıl" Olimpiya Oyunları təşkil etmək istəyirik. Beləki, ekoloji təmizlik bəşəriyyət üçün çox önəmlidir", - deyə Si Tzinpin bildirib.

Xatırladaq ki, 2022-ci ildə Çində XXIII Qış Olimpiya Oyunları keçiriləcək.

əziz OXUCULAR!

Olimpiya dünyası-na 2019-cu il üçün abunə yazılışı davam edir.

OLİMPİYA DÜNYASI

Abunə yazılışının

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

Abunə yazılmaq üçün
- "Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)
- "Qaya" (tel: 565 67 13)
- "Səma" (tel: 596 22 97)
- "City Press" (tel: 437 28 10)
- "Kaspi" (tel: 432 39 55)

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

"Olimpiya dünyası"- idmanımızın aynası

*Üçtərəfli memorandum imzalanıb* Səh. 2

Ən yaxşı fotoqraflar MOK-da mükafatlandırıldı Səh. 2

*Üzgüçümüz 2 medala layiq görülüb* Səh. 2

UGİM-lərin müəllimləri üçün təşkil edilən kurslar yekunlaşıb Səh. 3

*Sürət aləmi fərqli hadisələrlə zəngindir* Səh. 6

*"Amasiya" İdman Sağlamlıq Kompleksində* veteran futbolçunun xatirəsi futbol turniri ilə yad edildi Səh. 7

*"Neftçi"ni zirvədən endirmək mümkün deyil* Səh. 7

# Mükafatçılarla Gənclər və İdman Nazirliyində görüş təşkil edilib

(əvvəli 1-ci səhifədə)

“Land of Fire” polo komandasının qış polosu üzrə ənənəvi “Snow Polo World Cup St. Moritz” dünya kuboku turnirində uğurla çıxış etdiyini xüsusi vurğulayan nazir müavini nailiyyətlərin əldə olunmasında Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndirib.

ARAF-ın baş katibi Bəhruz Nəbiyev poloçularımızın qazandıqları nailiyyətlərdən danışıb və gələcəkdə daha böyük uğurların əldə olunacağına əminliyini bildirib: “Polo komandamız bir sıra uğurlara imza atıb. İsveçrədə donmuş gölün üzərində keçirilən yarışda poloçularımızdan daha böyük nəticələr gözləyirdik. İdmançılarımızın səhhətində bəzi problemlər yarandığından komandamızın çıxışı istədiyimiz kimi alınmadı. Amma üçüncü yer uğrunda görüşdə komandamız əzmlə mübarizə apararaq 5:0 hesabı ilə qalib gəldi. Növbəti turnirlərdə poloçularımızın daha yüksək nəticələrə nail olacaqlarına ümid edirik”.

Baş katib 2020-ci ildə polo üzrə Avropa çempionatının Azərbaycanda keçiriləcəyini və yarışlarda səkkiz komandanın iştirak edəcəyini bildirib. O, əvvəllər Olimpiya Oyunlarının proqramında yer alan polonun yenidən olimpiadaların proqramına salınacağına ümid etdiyini vurğulayıb.

Cüdo üzrə Azərbaycan millisinin böyük məşqçisi Elxan Məmmədov isə komandamızın Təl-Əviv Qran-Prisinə güclü cüdoçularla yollandığını deyib. Komandadan daha yüksək nailiyyət gözlədiklərini bildirən məşqçi qazanılan nəticənin qənaətbəxş olduğunu vurğulayıb. O, Rüstəm Orucov, Orxan Səfərov, Hidayət Heydərovun yarış ərəfəsində xəstələnmələrinin onların çıxışına mənfi təsir göstərdiyini, Elmar Qasımovun isə ilk görüşdə zədələndiyini vurğulayıb. E.Məmmədov yığmada Murad Fətiyevin (81 kq) yaxşı perspektiv vəd etdiyini diqqətə çatdırıb. Bildirib ki, bu çəki dərəcəsində uzun müddət boşluq var idi. Ümid edirik ki, komandamız Tokio Yay Olimpiya Oyunlarına tam heyətlə qatılacaq.

Beşqat dünya və dəfələrlə Avropa çempionu Rafael Ağayev 2019-cu ilin idmançılarımız üçün ən məsuliyyətli illərdən biri olduğunu bildirib. İdmançı vurğulayıb ki, əsas hədəf “Tokio 2020”yə lisenziya qazanıb ölkəmizi uğurla təmsil etməkdir.

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirov karatenin Olimpiya Oyunlarının proqramına salınmasından sonra yarışların səviyyəsinin xeyli artdığını bildirib: “Komandamızda çox güclü karateçilər yer alıblar. Karate Olimpiya Oyunlarının proqramına daxil edildikdən sonra yarışların səviyyəsi xeyli artıb, rəqabət güclənib. İdmançılarımız artıq dünyada ən ciddi rəqiblərdən sayılırlar. Rafael Ağayev finala qədər, eləcə də finalda inamla mübarizə apardı. Çalışacağıq ki, karateçilərimiz növbəti yarışlarda daha böyük uğurlar əldə etsinlər”.

Karate üzrə yığma komandanın böyük məşqçi Qurban Tağıyev idmanın bu növünün Olimpiya Oyunlarının proqramına daxil edilməsinin önəmini vurğulayıb. O bildirib ki, karateçilərimiz olimpiadadan əvvəl “Minsk 2019” ikinci Avropa Oyunlarına vəsiqə qazanmağa çalışacaqlar.

AMKF-in baş katibi Mirhəsən Seyidov 2019-cu ilin karateçilər üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, karateçilərimiz lisenziya xarakterli yarışlarda uğurla çıxış etməyi qarşıya məqsəd qoyublar.

Qeyd edək ki, Parisdə Karate 1 Premyer Liqa turnirində Rafael Ağayev (75 kq) gümüş, Təl-Əvivdə keçirilən cüdo üzrə Qran-Pridə İrina Kindzerskaya (+78 kq) qızıl, Məmmədəli Mehdiyev (90 kq) bürünc medal əldə ediblər. “Land of Fire” polo komandası isə İsveçrənin Sankt-Moritz şəhərində keçirilən qış polosu üzrə ənənəvi “Snow Polo World Cup St. Moritz” dünya kuboku turnirində üçüncü yeri tutub.

# Üçtərəfli memorandum imzalanıb




“ASAN Radio” Azərbaycan paralimpiyaçılarına dəstək olacaq.

Bu barədə yanvarın 30-da “ASAN Radio”, Azərbaycan Milli Paralimpiya Komitəsi və Azərbaycan Cüdo Federasiyası arasında üçtərəfli memorandum imzalanıb.

Memorandumu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “İnnovasiyalar Mərkəzi” MMC-nin “ASAN Radio” departamentinin müdiri Emin Musəvi, Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov və Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı imzalayıblar.

Anlaşma memorandumu tərəflər arasında informasiya dəstəyi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığı əhatə edir.

“ASAN Radio” Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə yaradılıb. Dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk və yeganə radio olan “ASAN Radio” daim sosial layihələrə, əlillərə xüsusi diqqətlə yanaşıb, həssas təbəqəyə mütəmadi yer ayırıb. Sosial çarxlar (video-audio) hazırlayıb, filmlər çəkən radio bu layihələri beynəlxalq tərəfdaşlarla birgə həyata keçirib. “ASAN Radio” yerli və beynəlxalq əhəmiyyətli idman yarışlarının media dəstəkçisidir.



Avropa Üzgüçülük Federasiyasının (LEN) kuboku uğrunda yarışlarının Lüksemburqda keçirilən növbəti mərhələsində Azərbaycan üzgüçüsü Maksim Şemberyev iki gümüş medal qazanıb. Avropa və Asiyanın ən güclü üzgüçülərinin yarışdığı turnirdə

# Üzgüçümüz 2 medala layiq görülüb

Maksim Şemberyev 400 metr məsafəyə qarışıq üsulla üzgüçülük yarışında 4.23 dəqiqə nəticə ilə ikinci yeri tutub. Azərbaycan idmançısı 1500 metr məsafəyə yarışda isə 15.38 dəqiqə nəticə ilə kürsünün ikinci pilləsinə qalxıb.

Üzgüçülük üzrə Azərbaycan millisinin baş məşqçisi Rəşad Əbdürəhmanov idmançımızın yarışdakı çıxışını qənaət bəxş hesab edərək deyib: “Maksim Şemberyevin qatıldığı turnir iyulun 12-28-də Koreya Respublikasının Kvancu şəhərində keçiriləcək su idman növləri üzrə dünya çempionatına hazırlıq xarakteri daşıyır. İlin ilk mötəbər yarışında Maksimin tam gücü ilə çıxış etməməsi normal haldır. Bu, bizim üzün müddətdir böyük səylə çalışmağımızın nəticəsini müəyyənləşdirmək baxımından vacib yarış idi. Maksim qarşısında qoyulan öhdəlikləri yerinə yetirir. Ümidvaram ki, o, dünya çempionatında Azərbaycanı layiqincə təmsil edəcək”.

# Bədii gimnastika üzrə dünya çempionatının loqosu təsdiqlənib

Paytaxt Bakı 2019-cu ildə gimnastika yarışlarının mərkəzinə çevriləcək. Belə ki, bu il gimnastika növləri üzrə 3 Dünya kuboku yarışları, 2 Avropa çempionatı və nəhayət, dünya çempionatının təşkili Azərbaycan Gimnastika Federasiyasına həvalə olunub. Kuboklardan batut (16-17 fevral) və idman gimnastikası (14-17 mart), çempionatlardan isə bədii gimnastika üzrə dünya çempionatının (16-22 sentyabr) əsas özəlliyi Tokio Olimpiya Oyunları 2020-ə lisenziya xarakteri daşımasıdır. İlin ilk kubokunda medallar və lisenziya xalları uğrunda mübarizə aparacaq ən güclü batutçuların adları artıq məlumdur. İdman gimnastikasında isə fevral ayının ortalarında siyahının açıqlanacağı gözlənilir. Bütün bu turnirlərə paralel gedən hazırlıq mərhələsində bədii gimnastika üzrə dünya çempionatının loqosu da artıq təsdiqlənib. Bənövşəyi, qızılı və qırmızı rənglərin qarışıq tonları ilə qadın incəliyinin vurğulandığı loqoda əsas alət kimi lent seçilib. Bədii gimnastikanın ən sevilən alətlərindən olan lentin möhtəşəmliyi bu çempionatda gimnastlara dünya arenasını fəth etməyə ilham verəcəyi ən incə detallara loqoda öz əksini tapıb.




# Pəhləvanlarımız Türkiyədən 5 medalla qayıdıblar

İstanbulda keçirilən Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirinə yekun vurulub. Güləş yığmamız 11 ölkədən 200-ə yaxın güləşçinin mübarizə apardığı ənənəvi yarışda 5 medal qazanıb.

Güləşçilərimizdən Murad Məmmədov (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Taleh Məmmədov və (63 kq) Oyan Nəzəriani (130 kq) isə yarışı gümüş medalla başa vurublar. Rafiq Hüseynov (82 kq) və Orxan Nuriyev (97 kq) isə bürünc medalla kifayətləniblər. Yekunda 114 xal toplayan komandamız dördüncü yeri tutub.



# Ən yaxşı fotoqraflar MOK-da mükafatlandırıldı

***Yanvarın 30-da Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında “Gilavar” Azərbaycan Foto Klubunun “Fotokadr 2018” adlı təqdimat və mükafatlandırma mərasimi keçirilib.***

***Tədbirdə Milli Məclisin deputatları, rəsmi şəxslər, fotoqraflar və KİV nümayəndələri iştirak ediblər.***

Gilavar” Azərbaycan Foto Klubunun həmsədri Dilavər Nəcəfov klubun yaradılmasında məqsədin ölkədə fotoqrafiyanın inkişafına töhfə vermək, istedadlı fotoqrafları üzə çıxarmaq və onların imkanlarından istifadə etmək, bu sahəyə maraqlarının artırılmasına, beynəlxalq fotomüsabiqələrdə iştirakına dəstək vermək və ölkəmizi fotolar vasitəsilə dünyada tanıtmaq olduğunu vurğulayıb.

D.Nəcəfov tədbirin təşkilində göstərdiyi dəstəyə görə MOK, Gənclər və İdman, Mədəniyyət nazirliklərinə və “ArtFaktor” təşkilatına, informasiya dəstəyi üçün Azərbaycan Dövlət İnformasiya Agentliyinə təşəkkürünü bildirib.

Klubun həmsədri, beynəlxalq dərəcəli fotoqraf Rəşad Mehdiyev bir il ərzində görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib.

R.Mehdiyev bildirib ki, bu müddət ərzində klub tərəfindən Beynəlxalq Foto Sənəti Federasiyasının (FIAP) və Amerika Fotoqrafiya Cəmiyyətinin (PSA) xüsusi icazələri ilə “Azerbaijan Photo Salon”, “Baku 2018” və “Autumn Circuit 2018” adlı üç beynəlxalq fotomüsabiqə təqdim olunub. Klub tərəfindən təşkil edilən ilk müsabiqəyə 57 ölkədən 410 fotoqraf 7865, ikinci müsabiqəyə isə 55 ölkədən 329 fotoqraf 5741, dairəvi sistem üzrə keçirilən üçüncü müsabiqəyə 53 ölkədən 273 fotoqraf 3463 foto göndərib. Ümumilikdə təqdim olunan 478 mükafatı əldə etmək üçün dünyanın 60 ölkəsindən 1011 fotoqraf bu yarışlara 17 min 69 foto göndərib. Bu müsabiqələr zamanı Azərbaycandan olan fotoqraflar Dilavər Nəcəfov, Kərim Abbasov, Orxan Əzimov, Ramil Zeynalov, Rüstəm Məhərrəmov, Şahin Sərdarov, Nadejda Cavadova və Kelvin Qasımov xüsusi seçiliblər. Azərbaycanlı fotoqraflar ümumilikdə 27 mükafat qazanıblar. Fotoların qiymətləndirilməsi beynəlxalq fotoqrafiya təşkilatlarının qaydaları və şərtləri çərçivəsində Azərbaycan, Gürcüstan, Serbiya, Makedoniya və Monteneqrodan olan peşəkar fotoqraflardan ibarət münsiflər tərəfindən aparılıb.

Qeyd edilib ki, “Gilavar” Azərbaycan Foto Klubunun üzvləri mütəmadi olaraq fərdi fotomüsabiqələrdə iştirak edərək mükafatlar qazanırlar. Təkcə 2018-ci il ərzində klubun fotoqrafları Azərbaycana 50-dən artıq beynəlxalq mükafat qazandırıblar.

Qalib fotoqrafların işləri isə müsabiqələrin keçirildiyi ölkələrdə sərgilənib.

O, vurğulayıb ki, azərbaycanlı fotoqraflar təkcə fərdi şəkildə deyil, eyni zamanda, klub şəklində də beynəlxalq foto aləmində təmsil olunublar. Belə ki, Səudiyyə Ərəbistanında keçirilən “2nd FIAP In My Heart Forever 2018” virtual sərgisində 11 fotoqrafın işi sərgilənib və onlara diplomlar təqdim olunub. İtaliyada “13th FIAP Clubs' World Cup” klublararası dünya çempionatı keçirilib. Azərbaycanı ilk dəfə bu foto yarışmada 17 fotoqrafla “Gilavar” Azərbaycan Foto Klubu təmsil edib. Müsabiqəyə dünyanın 37 ölkəsindən 3760 foto təqdim edilib. Yekunda Azərbaycan təmsilçiləri 322 bal toplayaraq 188 fotoklub arasında 82-ci yerdə qərarlaşıblar.

R.Mehdiyev bildirib ki, “Gilavar” yeni yaranmasına baxmayaraq, artıq Beynəlxalq Foto Sənəti Federasiyasına üzv qəbul olunub, bu təşkilatın Azərbaycanda yerli fərdi klub statusunu əldə edib. Adıçəkilən qurum dünyada UNESCO tərəfindən tanınmış yeganə fotoqrafiya təşkilatıdır. Bu qurumun üzvlüyünə qəbul edilmiş klublar xüsusi statusa, fotoqraflar isə ömürlük fəxri adlara layiq görülür. Azərbaycandan 3 fotoqraf Beynəlxalq Foto Sənəti Federasiyasının fəxri adlarına layiq görülüb ki, onlardan ikisi “Gilavar” fotoklubunun üzvləridir.

Tədbir çərçivəsində iştirakçılara “Autumn Circuit 2018” fotomüsabiqəsində qalib gəlmiş fotolardan ibarət videoçarx nümayiş olunub.

Sonra “Gilavar” tərəfindən təşkil edilən beynəlxalq yarışlarda fərqlənən azərbaycanlı fotoqrafların mükafatlandırılması mərasimi keçirilib. Müsabiqənin ən yaxşılarına medallar, xüsusi lentlər və diplomlar təqdim olunub.

Azərbaycanda fotoqrafiya sənətinin inkişafında xidmətlərinə və fotoqrafiya sahəsindəki uğurlarına görə Azərtac-ın fotomüxbiri, beynəlxalq dərəcəli fotoqraf İlqar Cəfərov “ArtFaktor” tərəfindən, fotoqrafiya sahəsindəki uğurlarına görə gənc fotoqraf Kərim Abbasov və Azərbaycan foto sənətinə göstərdiyi informasiya dəstəyinə görə Azərbaycan Dövlət İnformasiya Agentliyi “Gilavar” tərəfindən xüsusi diplomlarla təltif edilib. Bundan əlavə, ötən ilin dekabrında Beynəlxalq Foto Sənəti Federasiyasının rəssamı fəxri adını qazanmış fotoqraflar Rəşad Mehdiyev və Nadejda Cavadovaya bu qurumun xüsusi diplomları təqdim olunub.

# UGİM-lərin müəllimləri üçün təşkil edilən kurslar yekunlaşıb

Milli Olimpiya Komitəsinin (MOK) təşkilatçılığı və Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Olimpiya Həmrəyliyi fondunun dəstəyi ilə keçirilən “İdman Adminastratorluğu” kursları yekun vurulub. Kursun əsas məqsədi BOK-un Olimpiya Həmrəyliyi Fonduna əsasən iştirakçılar arasında idman inzibatçılığı və tədbiqi mövzusunda bilikləri artırmaqdır. Tədbir müddətində iştirakçılar BOK, kommunikasiya, dopinq və onunla mübarizə, Olimpiya marketinqi, idarəetmə və digər mövzularda mühazirələrə qulaq asıb, fikir mübadiləsi aparıblar.

Təlimlərdə mühazirələri Mehman Kərimov, Anar Bağırov, Ceyhun Rəhmanov, Kənan Məhərrəmov, eləcə də, Azərbaycan Voleybol Federasiyasının şöbə müdiri Elnur Məmmədov, Bakı-2019 Təşkilat Komitəsinin üzvü Elçin Səfərov aparıblar.

Kurslarda iştirak edən Uşaq-Gənclər İdman Məktəbinin 20 nəfərə yaxın müəllimi iştirak edib. Xatırladaq ki, “İdman adminstratorluğu” kursları müəllimlər və idman mütəxəssislərin inzibatçılıq üzrə bilik və bacarıqlarını artırmaqdan, idmançılar üzərində düzgün metodika və təcrübənin istifadə edilməsindən Milli Olimpiya Komitəsi artıq 5-ci dəfədir ki, bu tipli kursları təşkil edir.



## “Şahin” idman klubunun filialı fəaliyyətə başlayıb

Paytaxtdan 30 kilometr aralıda yerləşən “Qobulənd” şəhərciyində “Şahin” idman klubunun filialının açılışı keçirilib. Zalın açılışında tanınmış cüdo mütəxəssisləri, idmançılar iştirak ediblər. Klubun rəhbəri Əməkdar məşqçi Azər Bağırovun sözlərinə görə 1998-ci ildən fəaliyyət göstərən “Şahin” idman klubunun yeni filialının açılmasında məqsəd uşaq və yeniyetmələr arasında idmanın kütləviliyini artırmaq, yetişməkdə olan gənc nəsli vətənpərvər ruhda böyütməkdir. “Şahin” idman klubu həmişə özünün uğurları ilə fərqlənib. İnanıram ki, yeni filialımızda da perspektivli idmançılar yetişəcək”-deyə Azər müəllim əlavə edib.



## Redaksiyanın poçtundan



### Astara məktəbliləri mini futbol üzrə rayon birinciliyində iştirak ediblər

Astara rayon Gənclər və İdman İdarəsi və Astara rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Yeniyetmələrin XII Respublika Oyunlarına hazırlıq məqsədi ilə 2006-2007-ci il təvəllüdlü məktəblilər arasında mini futbol üzrə rayon birinciliyi keçirilmişdir.

Astara Olimpiya İdman Kompleksində təşkil edilən birinciliyin keçirilməsində məqsəd uşaq və yeniyetmələr arasında futbolun kütləviliyini artırılması, eləcə də, Yeniyetmələrin XII Respublika Oyunlarına hazırlıqla əlaqədar rayonun yığma komandasını müəyyən etməkdir.

Yarışın nəticələrinə görə, Astara şəhər 1 saylı və 2 saylı tam orta məktəblərinin komandası müvafiq olaraq I və II yerlərə layiq görülüblər. Qaliblər Rayon Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

*Rufan Şirinov,*
*Astara RGİİ-nin aparıcı məsləhətçisi*

**— Müsahibə —**

# “Olimpsport” jurnalının fəaliyyətinə qiyməti onun oxucuları verə bilər”

***Ölkəmizdə idmanın yüksək səviyyədə və dinamik inkişafı idman jurnalistikasının inkişafına da öz müsbət təsirini göstərib. İdmanın inkişafı və təbliğinə öz töhfəsini verən idman nəşrlərindən biri də bu il on yaşını qeyd edən “Olimpsport” jurnalıdır.***

***“Olimpsport” jurnalının 10 il ərzində gəldiyi yola, gördüyü işlərə nəzər salmaq üçün həmin idman nəşrinin təsisçisi və baş redaktoru Ramin Allahverdi ilə görüşüb söhbət etdik.***



***- Ramin müəllim, necə oldu ki, “Olimpsport” jurnalı ərsəyə gəldi və siz taleyinizi idman jurnalistikasına bağladınız?***

- “Olimpsport” jurnalı ilk dəfə 2008-ci ilin may ayında “Güləş” adı altında fəaliyyətə başlayıb. Dünyanın inkişaf etmiş güləş ölkələrində bu növə həsr olunan bir sıra jurnallar olduğu halda zəngin güləş ənənələrinə malik olan Azərbaycanda belə bir nəşrin olmaması məni çox narahat edirdi. Buna görə də “Güləş” jurnalını təsis etmək qərarına gəldim. Mən uzun müddət güləşlə məşğul olmuşam, yarışlarda iştirak etmişəm. Hüquqşünaslığı qurtarsam da, ikinci ali təhsil almaq üçün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirməyi çox istəyirdim. Məzun olduqdan sonra məşqçilik etməyə qərar verdim. 2004-cü ildən bu günə qədər məşqçilik edirəm. Respublikanın əməkdar məşqçisi, fəxri bədən tərbiyəsi və idman işçisiyəm. Məşqçilik fəaliyyətim dövründə bir sıra yetirmələrim müxtəlif yaş qruplarında milli komandanın heyətində yer alıb, Avropa və dünya birinciliklərində nailiyyətlər qazanıblar.

***- Niyə məhz “Olimpsport”?***

- Təsisçi və baş redaktor kimi əsas məqsədim yalnız güləşi deyil, eləcə də, bütün idman növlərini təbliğ etmək, ölkənin idman və Olimpiya Hərəkatında baş verən yenilikləri əks etdirmək idi. Rəhmətlik Akif müəllimin məsləhəti ilə “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyevin yanında oldum, yeni işimlə bağlı ondan məsləhət istədim. Murad müəllim də böyük məmnuniyyətlə məndən, jurnalın kollektivindən köməyini əsirgəmədi. “Olimpiya dünyası” qəzetinin kollektivi və əməkdaşları “Olimpsport” jurnalının ərsəyə gəlməsində, özünə doğru, düzgün istiqamət götürməsində yaxından köməklik göstərdilər. Jurnalın məhz belə adlandırılması “Olimpiya dünyası “ qəzetinin baş redaktorunun müavini və “Olimpsport” jurnalının redaktoru Aslan Şirəliyevin təşəbbüsüdür.

***- 10 illik fəaliyyətiniz dövründə oxuculara çatdırdığınız ən sevincli və ya kədərli xəbər haqda nə deyə bilərsiniz?***

- Baş redaktor kimi bu müddət ərtzində oxucularla bölüşdüyümüz ən kədərli xəbər AFFA nın sabiq prezidenti Ramiz Mirzəyevin dünyasını nakam dəyişməsi haqda məlumat olub. Yaxından tanıdığım bir insanın xəbərini saytımızda vermək mənim üçün çox ağır idi. Akif Şahverdiyevin də dünyasını dəyişməsi xəbərini paylaşmaq arzu olunmaz xəbər idi. Mənim bir idmançı kimi ürəyimcə olmayan bəd xəbərlərdən biri də “Xəzər Lənkəran” futbol klubunun və “Lokomotiv” İdman Sağlamlıq Mərkəzinin fəaliyyətini dayandırması idi. Həqiqətən də “Xəzər Lənkəran” futbolumuza rəng qatmışdı. Dərc etdiyimiz şad xəbərlərə gəldikdə isə məncə Bakı-2015 Birinci Avropa Oyunları, London-2012 Olimpiya Oyunlarında güləşdən qazandığımız iki qızıl medal, Bakı-2017 İslam Oyunları, “Qarabağ” klubunun Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması, bu il Avropa Liqasının final oyununun paytaxtımızda keçirilməsi, 2020 futbol üzrə Avropa çempionatının final mərhələsinin bəzi qrup qarşılaşmalarının və s. xəbərlərini qeyd edərdim. Ölkə başçısı cənab İlham Əliyevin İmişliyə səfər zamanı görüşümü isə ömrüm-boyu unutmaram.

***- “Olimpsport” jurnalı həm də müxtəlif tədbirlərin təşkilatçısı kimi çıxış edir?***

- “Olimpsport” jurnalı Azərbaycan Mətbuat Şurasının, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının və AİPS-nin üzvüdür. Biz bu illər ərzində bir sıra kütləvi tədbirlərin təşkilatçısı və iştirakçısı kimi çıxış etmişik. Jurnalımız 10 il ərzində oxucular arasında dəfələrlə ilin ən yaxşılarını seçmək üçün sorğular keçirib və nominasiya qaliblərini mükafatlandırıb. Elə bu səbəbdən də 10 illik yubileyinə hazırlaşan “Olimpsport” jurnalı Azərbaycan Mətbuat Şurası və “Olimpiya dünyası” qəzeti ilə birgə son 10 ilin ən yaxşılarını seçmək üçün “qızıl 10-luq” idman sorğusu elan edib. Sorğuda qalib olanlar jurnalın yubiley tədbirində mükafatlandırılacaqlar. Bundan əlavə, jurnalın eyni adlı saytı (olimpsport.az) da artıq 4-cü ildir ki, davamlı fəaliyyət göstərir. Əminəm ki, 10 illik yubileyini qeyd etməyə hazırlaşan “Olimpsport” jurnalı bundan sonra fəaliyyətini daha da gücləndirəcək və Azərbaycanın idman mətbuatına öz töhfəsini verəcək.



*Səadət Hakıyeva*

# Gənclər günündə velosipedçilər yarışıblar

2 fevral - Gənclər Günü ilə əlaqədar olaraq Azərbaycan Velosiped İdmanı Federasiyası və Respublika Velotrekinin təşkilatçılığı ilə tələbələr arasında velosiped yarışı təşkil edilib. Yarışda Bakı Musiqi Akademiyası, Azərbaycan Respublikası Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Milli Konservatoriyasının tələbələri iştirak ediblər.

Yarışın qaliblərinin mükafatlandırma mərasimindən əvvəl Gənclər gününün Azərbaycan gəncləri üçün əhəmiyyətindən, dövlət səviyyəsində aparılan gənclər siyasətindən danışılıb. Bildirilib ki, gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Daha sonra tələbələr arasında təşkil olunan yarışın qaliblərinə mükafatlar təqdim edilib.

## Qış idman növündə ilk qızıl medal

Azərbaycan Paralimpiya hərəkatının tarixində ilk dəfə olaraq paralimpiyaçılarımız qış idman növü üzrə beynəlxalq turnirə qatılıblar. İdmançılarımız ilk dəfə iştirak etdikləri yarışda qızıl medal qazanıblar.

İranda dağ xizəkçiliyi üzrə Asiya çempionatında iştirak edən idmançımız Gülnar Rəhimova ilk yarış günündə “böyük slalom” yarışlarında ən yaxşı nəticəni göstərərək birinci olub.

Çempionatın ikinci günündə isə G.Rəhimova “slalom” üzrə yarışlarda ən yaxşı nəticəni göstərib. Hər iki yarışın nəticəsinə görə, Gülnar Rəhimova iki qızıl medala layiq görülüb.

Fevralın 4-də keçirilən mükafatlandırma mərasimində idmançımıza qızıl medallar təqdim olunub.

* * *

Yanvarın 30-dan fevralın 2-nə kimi Azərbaycan Əlil Arabasında Qılıncoynatma Federasiyasının Kuboku uğrunda qadınlar və kişilər arasında yarışlar keçirilib. Rapira, sablya və şpaqa növlərində təşkil olunan yarışda 8 idman klubunu təmsil edən idmançılar iştirak ediblər. Qeyd edək ki, yarışda millət vəkili Elmira Axundova, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov, Bakı Şəhər Gənclər və İdman İdarəsinin rəis müavini Rəşad Əliyev çıxış edərək idmançılara uğurlar arzulayıblar.



Kişilərin yarışında “Eskrim” klubunun idmançısı Abdulbağı Abdullayev hər üç növdə çempion olmağı bacarıb. Rapira və şpaqa növlərində İlqar Kazımov ikinci, Aqşin İsazadə və Vadim Aslanov isə üçüncü olublar. Qadınların mübarizəsində isə şpaqa növündə Qəndəf Əkbərli bütün rəqiblərinə qalib gələrək yarışı qızıl medalla başa vurub. Həmin növdə Aytəkin Həsənova yalnız finalda məğlub olaraq ikinci olub. Rapira və Sablya növlərində isə Aytəkin Həsənova yarışı birinci, Qəndəf Əkbərli isə ikinci plllədə başa vurub. Kəmalə Babayeva və Samirə Əliyeva isə hər üç növdə üçüncülüklə kifayətləniblər.

Bildirilib ki, baş məşqçi Asəf Məlikov və yığma komandanın üzvü Aytəkin Həsənova fevralın 3-də Ukraynanın Xarkov şəhərində keçirilən təlim-məşq toplanışına yola düşüblər. Ayın 8-dək davam edəcək təlim-məşq toplanışı Dünya Paralimpiya Oyunlarına hazırlıq xarakteri daşıyır.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# “Arpaçay”da gələcəyin yeniyetmə karateçiləri yetişir

***İdman növləri arasında karate özünəməxsus xüsusiyyətlərə malikdir. Şərq əlbəyaxa döyüş növləri arasında böyük nüfuza vəauditoriyaya malik olan karate həm fiziki, həm də mənəvi cəhətdən insana kamillik bəxş edir. Karate ilə məşğul olan insanlar ətrafdakılara və özünə qarşı diqqətli və məsuliyyətli olur. Əsrlərdən günümüzə qədər öz ənənələrini qoruyub saxlayan karate günü-gündən populyarlığını qoruyur. Statistikaya əsasən dünyanın əksər ölkələrində, eləcə də Azərbaycanda karate valideynlər tərəfindən övladlarına tövsiyə olunan idman növlərindən biridir.***

***Bu idman növü haqqında müxtəlif mənbələrdə fərqli fikirlər söylənilsə də, məzmun dəyişmir. Karate incəsənət, karate özünümüdafiə üçün ən güclü silahdır. Bu fikirlər karatenin hərfi mənada təcəssümündə də öz əksini tapıb.***

“Karate” yapon mənşəli termin olub, “kara” - boş, “te” - əl deməkdir. Karatenin digər mənası “pis əməllərdən uzaq olan əl”deməkdir. Qədim əlbəyaxa döyüş növü olaraq insanlara hörmət və məhəbbət, digər tərəfdən ədalət və sakitlik bəxş edir. Karatenin əqidəsi “ilk hücum edən sən olma” şərəf kodeksidir. Karate - özünü və digərlərini məcburi müdafiə vəziyyəti olmadan istifadə edilməsini qadağan edən döyüş sənətidir. Karate bədəni, ruhu möhkəmləndirərək yeni bacarıqlar və imkanlar sayəsində sərhədlərini genişləndirən həyat yoludur.

Karatenin fəlsəfəsinin əsasını “zor tətbiq etməmək” ideyası durur. Müasir karetedə qədim üslubun yaradıcısı Xoşu İkedanın fikirlərindən bunu aydın görmək olur: “Siz karateni ziyan vurmaq vasitəsi kimi təlim edə bilməzsiniz, bu təbiətin harmoniyasını pozur, lakin karateni sizə və ya başqalarına zərər verənləri dayandırmaq imkanı verən vasitə kimi öyrədə bilərsiniz. Beləliklə, siz təbiətin ahəngini bərpa etmiş olursunuz”.

## Cəldliyə və texnikaya gedən yol, ürəkdən başlayır

Müasir dövrümüzdə karate haqqında eşitməyən və özünəməxsus təsəvvürü olmayan insan çətin tapılar. Müasir karate bir neçə istiqamətə bölünüb. Kütləvi idman karatesi - fiziki tərbiyə sistemini təqdim edir ki, bu da xüsusi idman keyfiyyətlərinin qorunmasına və inkişafına, hərəki fəallığına xidmət edir. İdman karatesi - idman hərəkatının bir hissəsi sayılır. İdman döyüşündə məqsəd mümkün qədər zədələri azaltmaq və döyüşü baxımlı etməkdir. Döyüş sənəti - əlbəyaxa döyüş növlərindən hesab olunur. Əgər insan karate ilə məşğul olursa, onun öyrəndikləri cəmiyyət üçün faydalı olmalıdır. Karate fəndləri təkcə əl-ayağı əyləncə üçün atmaq deyil. Döyüşdə karate fəndlərini istifadə etmək, yalnız baza texnikasına əsaslı şəkildə yiyələndikdən sonra mümkündür. Cəldliyə və texnikaya gedən yol, ürəkdən başlayır. İnsanın bütün hərəkətləri onun daxilinin, ruhunun əksidir. Karate bu həqiqətlərə əsaslanır. Belə ki, qayda-qanunsuz, nizam-intizamsız heç bir uğura və inkişafa nail olmaq olmaz. Məşq prosesi ciddi təşkil olunmalıdır. Məşqçinin göstərişlərinə diqqət etmək, təcrübəli və irəliləmiş tələbələrin yüksək keyfiyyətlərinə nəzər yetirmək, döyüş zamanı diqqətli olub zədələrdən qaçmaq vacibdir. Özünütəhlil sayəsində hər məşqi təhlil edərək karate məşqini həyat tərzinə çevirməkdə əsas şərtdir.

Uşaq və yeniyetmələrin əlbəyaxa döyüş növlərinə marağını təmin etmək əsas şərtdir. Karate barəsində fəlsəfi fikirləri uşaqlara birbaşa aşılamaq olmaz. Bunun üçün müəllim və ustadların təcrübəsi çox vacibdir.

Bu gün ölkəmizdə şərq əlbəyaxa döyüş növləri böyük nüfuza malikdir. Azərbaycan idmançıları karatenin müxtəlif növləri üzrə keçirilən beynəlxalq yarışlarda uğurla çıxış edərək, yüksək mükafatlara yiyələnirlər. Azərbaycan karateçiləri istənilən idman tədbirində əsas rəqiblərdən sayılır. Bütün bunlar hələ ötən əsrin sonlarında Azərbaycanda məhz bu idman növünə olan maraqdan qaynaqlanır. Həmin ərəfələrdə şərq əlbəyaxa döyüş növlərinə qarşı yaranmış həvəs sayəsində gənc idmançılar formalaşdı. Karatedə kütləvilik hökm sürməyə başladı. Bu gün ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən idmançılar ordusu yarandı. Deməli, bu sahədə görülən işlər uğurlu, təməl isə güclü oldu. Ənənələr davam edir. Həmin idmançıların uğurlarına şahid olan uşaq və yeniyetmələrin sayı günü-gündən artır. Artıq ölkəmizdə karate üzrə formalaşan klubların sayında da artım hiss olunur. Demək olar ki, əksər klublarda karate üzrə bölmələr yaradılıb. Həmin bölmələrdə yüzlərlə uşaq qədim şərq əlbəyaxa idman növünün sirlərinə yiyələniblər. “Olimpiya dünyası” qəzeti vaxtaşırı olaraq “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə layihə yazılarında klubların fəaliyyətinə geniş yer ayırır. Həmçinin həmin idman ocaqlarından idmanın inkişafını diqqətdə saxlayır. Budəfəki sayımızda həmin klublardan biri barədə oxucularımıza geniş məlumat verməyə çalışacağıq. Qeyd etdiyimiz kimi, ölkəmizdə karate idman növü üzrə fəaliyyət göstərən klublar yetərincədir. Onlardan biri “Arpaçay” karate klubudur. Son bir neçə ildə “Arpaçay” klubu ölkə çempionatında böyük nüfuza yiyələnib. Keçirilən yarışların əksəriyyətində klubu təmsil edən idmançılar mükafatalayiq nəticələr göstəriblər. Elə bu məqsədlə klubun rəhbəri Yavər Hüseynovla görüşüb, görülən işlərlə bağlı ətraflı söhbət etdik. Yavər müəllim ona ünvanladığımız suallara aydınlıq gətirdi.



## “Biz bütün yarışlarımızı vətənpərvərlik ruhunda keçiririk”

“Gənc vaxtlarımdan idmana böyük həvəs göstərmişəm. Bizim dövrümüzdə idman bu səviyyədə inkişaf etməmişdi. İndiki kimi informasiya bolluğu, internet və sosial şəbəkələr yox idi. Biz daha çox Hollivud aktyorlarının, özünü kinofilmlərdə sınayan idmançılara baxıb, onlar kimi olmağa çalışırdıq. Məhz bu səbəbdən karateyə olan həvəsimiz bizi böyük idmana gətirdi. Uzun müddət karate ilə məşğul olub, yarışlarda iştirak etdim. Müstəqillik əldə olunduqdan sonra hər bir sahədə olduğu kimi idmanda da yüksəliş dövrü başladı. Biz idmançılar üçün mövcud imkanlar yarandı. Karateyə olan marağım daha da artdı. Fikirləşirdim ki, nə vaxtsa əldə etdiyim uğurları uşaq və gənclərlə bölüşüm. İstəyirdim ki, bir klub yaradıb, orada karateyə həvəsi olan uşaqlara məşqlər keçim. Nəhayət, bu istəyimə 2015-ci ildən sonra nail oldum. Həmin il “Arpaçay” karate klubunu yaratdım. Klubun adının seçilməsi heç də təsadüfi deyil. Belə ki, mən Şərurda doğulub, boya-başa çatmışam. Yaşadığım ərazidən Arazın bir qolu olan Arpaçay keçir. Həmin ərazi böyük tarixə malikdir. Ona görə də rəhbəri olduğum klubu məhz bu cür adlandırdım. Hazırda “Arpaçay”ın 4 filialı var. Bu zallarda mənimlə birlikdə ümumilikdə 4 məşqçi-müəllim çalışır. Bu gün klubumuzda 200-dən çox uşaq, yeniyetmə və gənc karatenin sirlərinə yiyələnir. Qeyd etmək istərdim ki, bir idman cəmiyyəti üçün üç illik fəaliyyət dövrü o qədər də çox deyil. Ancaq düşünürəm ki, biz bu qısa müddət ərzində öz sözümüzü deməyi, digər klub və cəmiyyətlər arasında müsbət mənada fərqlənməyi bacarmışıq. Əlbəttə, bu, heç də heç də təsadüfi deyil. Bu, bizim səmərəli və məqsədyönlü işlərimizin, çəkdiyimiz zəhmətin bəhrəsidir. Bizim ən əsas məqsədimiz klubumuzda karate ilə məşğul olan uşaq, yeniyetmə və gənclərin sağlam olmaları, vətənpərvər ruhda böyümələridir. Bunun üçün əlimizdən gələni əsirgəmirik. Gənc nəsil sağlam və vətənpərvər ruhda böyüməlidir ki, sabah Azərbaycanı beynəlxalq aləmdə layiqincə təmsil edə bilsin. “Arpaçay” klubu indiyə qədər üç beynəlxalq turnirə ev sahibliyi edib. Sonuncu yarışımızda 11 ölkədən 1100 idmançı iştirak etdi ki, bu, həqiqətən, çox yaxşı göstəricidir. Artıq “Arpaçay” klubunun nəinki Azərbaycanda, dünya miqyasında tanınmasından xəbər verir. Qeyd etmək istərdim ki, biz bütün yarışlarımızı vətənpərvərlik ruhunda keçiririk. Xüsusilə şəhidlərimizin xatirəsinə həsr olunmuş turnirlər təşkil edirik və bununla da yeniyetmə, gənclər arasında vətənpərvərlik hissini təbliğ etməyə çalışırıq. Dediyim kimi, yüksək nəticələr arzulayan idmançı ilk növbədə vətənpərvər olmalıdır”, - deyə Yavər Hüseynov bildirdi.




## İdman və təhsil mütləq paralel inkişaf etməlidir

Müsahibimiz söhbət zamanı bildirdi ki, klubun əsas məqsədi güclü maddi-texniki bazaya sahib olmaq, və uşaqlara fiziki və mənəvi cəhətdən dəstək olmaqdır. Yığma komanda üçün yeni istedadların toplanması da əsas şərtdir. Əslində bu amillərin hər biri digəri ilə zəncirvaridir. Yavər Hüseynov vurğuladı ki, kompleks şəkildə vahid məqsəd - “Arpaçay” klubunu və gənc, perspektivli idmançıları dünyada tanıtmağa xidmət edir.

“Bu gün Azərbaycan karatesinin ən titullu simaları olan Rafael Ağayav, Şahin Atamov, Ayxan Mamayev, Firdovsi Fərzəliyev və digərləri 2020-ci ildə keçiriləcək Tokio Olimpiadasından sonra tədricən peşəkar idmandan uzaqlaşacaqlar. Bu, istər-istəməz belə olmalıdır. Çünki yaş öz sözünü deyir. Biz çalışırıq ki, gələcəkdə həmin idmançılarımızın yollarını davam etdirə biləcək karateçilər yetişdirək. Fərəhlə deyə bilərəm ki, hazırda yığma komandanın heyətindəki idmançılardan 14-ü məhz “Arpaçay”ın yetirmələridirlər. Biz onların hər biri ilə fəxr edirik. Onu da qeyd edim ki, klubun uğurları kütlə arasında böyük əks-səda doğurub. Bu ciddi və məqsədyönlü işimizin sayəsində ərsəyə gəlib. Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Əvvəllər olduğu kimi, indi də övladlarını karate bölməsinə yazdıran valideynlər ilk növbədə müəllimin kim olduğunu soruşur, məşq prosesi ilə yerində maraqlanırlar. Lakin deməliyəm ki, indi uşaqlarla işləmək daha çətindir. Əminliklə qeyd edə bilərəm ki, o zamankı məşqçilərin əksəriyyəti indiki dövrdə müəllim kimi çalışa bilməzlər. Çünki indiki vaxtda uşağı aldatmaq mümkün deyil. Məsələn bu gün əgər məşqçi bir fəndi səhv başa salarsa, idmançı sabah deyəcək ki, müəllim, mən internetdə baxdım, bu hərəkət başqa cürdür. Məhz texnika-texnologiyanın inkişafı, informasiya mənbələrinin çoxluğu tələb edir ki, məşqçi savadlı olsun. İkinci əsas cəhət isə ondan ibarətdir ki, əvvəlki peşəkar idmançılar, bəlkə də, təhsili ikinci plana sala bilərdilər. Bu günün tələbi isə fərqlidir. İdman və təhsil mütləq paralel inkişaf etməlidir. Əks halda müasir şəraitdə özünə yer tapmaq çətin olacaq. Növbəti bir fərq isə karate idman növünün özü ilə bağlıdır. Belə ki, əvvəllər bu idman növündə zədə almaq ehtimalı daha çox idi. Amma karate Olimpiya proqramına daxil olduqdan sonra vəziyyət bir qədər dəyişdi. Artıq zərbənin qüvvəti yox, sürət daha vacibdir. Düşünürəm ki, məhz bu amil karateni daha da gözəlləşdirib”, - deyə klubun rəhbəri bildirdi.

Məlumdur ki, Olimpiya oyunlarının proqramına salınan idman növlərinin sayı illər ötdükcə artır. Qarşıda bizi 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunları gözləyir. Azərbaycan idmançılarının planetin ən böyük idman tədbirində iştirakı uğurlu rəqəmlərlə yadda qalıb. 4 ildən bir keçirilən yarışda atletlərimizin qazandığı medalların sayı da artır. Cüdo, güləş, atıcılıq, boks və digər növlərdə əldə etdiyimiz medallar buna bariz nümunədir. Artıq qarşıdakı olimpiada da medal qazanmaq fürsəti verən daha bir idman növü də karate olacaq.

Məlumdur ki, 2016-ci ildə Beynəlxalq Olimpiya Komitəsi (BOK) Rioda keçirdiyi qurumun 129-cu sessiyasında mühüm qərarlar qəbul etmişdi. Həmin vaxt 5 idman növünün bundan sonra Olimpiya idman növlərinin sırasına qoşulması rəsmiləşmişdi.

Beysbol/softbol, idman dırmanması, su xizəyi, sörfinqlə yanaşı karate də proqrama daxil olunmuşdu. Bu, o deməkdir ki, I Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında, dünya və Avropa çempionatlarında, Qran-pri turnirlərində fərqlənən idmançılarımızın Olimpiya çempionu olmaq imkanı yaranıb. Amma unutmaq olmaz ki, böyük uğurların təməlində uşaq idmanı dayanır. Biz bunu daim diqqətdə saxlamalıyıq. İdmana və bədən tərbiyəsinə böyük dəstək olan Azərbaycanda dövlət tərəfindən atletlərimizə böyük imkanlar yaradılır. Çalışıb bu etimadı doğrultmaq lazımdır.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Yanvar

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında



### Cüdo

İsrailin paytaxtı Təl-Əvivdə keçirilən cüdo üzrə Qran-pri turnirinə yekun vurulub. 53 ölkədən 373 cüdoçunun mübarizə apardığı yarışda ölkəmiz 16 idmançı ilə təmsil olunub. 3 gün davam edən Qran-pri turniri Azərbaycan cüdoçuları üçün uğurlu olub. Qadınların mübarizəsində ölkəmizi təmsil edən İrina Kindzerska (+78 kq) beynəlxalq turnirin qalibi adına layiq görülüb. Kişilər arasında 90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev isə millimizə bürünc medal qazandırıb. Digər təmsilçilərimizdən İbrahim Əliyev (66 kq), Murad Fətiyev (81 kq) və Uşangi Kokauri (+100 kq) 5-ci yerlə kifayətləniblər. Bu nəticə ilə cüdo üzrə Azərbaycan yığması Belarus, Belçika, Sloveniya, Ukrayna, Rusiya, Hollandiya, İsveçrə və başqa ölkələri qabaqlayaraq beşinci yerdə qərarlaşıb.

### Güləş

İranın Əndimeşk şəhərində yunan-Roma güləşi üzrə "Təxti kuboku" turniri keçirilib. 39-cu dəfə təşkil olunan ənənəvi yarışda ölkəmizi yığmamızın böyük məşqçisi Rövşən Bayramov və məşqçi Emin Əhmədovun rəhbərliyi altında 10 güləşçi təmsil edib.

İran, Azərbaycan, Gürcüstan, Ermənistan, Kuba, Çin, Xorvatiya, Serbiya və Fələstin pəhləvanlarının mübarizə apardığı turnirdə Azad Əliyev (72 kq) gümüş, Ziyad Zeynalov (55 kq) və Arif Niftullayev (97 kq) isə bürünc medal qazanıblar.

Mikayıl Rəhimov (60 kq), Zaur Nuriyev (63 kq), Kərim Cəfərov (67 kq) və Elməddin Ramazanov (82 kq) beşinci yerlə kifayətləniblər.

Komanda hesabında millimiz 134 xalla 2-ci yeri tutub. İran (240 xal) birinci, Gürcüstan (109 xal) isə üçüncü olub.

* * *

Yanvarın 12-də Bakı İdman Sarayında 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr arasında sayca 22-ci açıq respublika turnirinə yekun vurulub.



Yarışda Azərbaycan pəhlivanları ilə yanaşı, Gürcüstan, Rusiya, Qazaxıstan və Özbəkistandan olan güləşçilər də iştirak ediblər. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda komanda hesabında Azərbaycan birinci, Gürcüstan ikinci, Özbəkistan isə üçüncü yeri tutub.

### Karate

Xorvatiyanın Samobor şəhərində yeniyetmə və gənc karateçilər arasında 28-ci Qran-Pri turniri keçirilib. 23 ölkədən 1621 karateçinin iştirak etdiyi ənənəvi yarışda idmançılarımız 10 medal qazanıblar. Medallardan dördü qızıl, biri gümüş, beşi isə bürüncdür.

Turnirdə (kata) Roman Heydərov millimizin aktivinə iki qızıl medal yazdırıb. O, 18-20 yaşlı gənclər və böyüklər arasında yarışların qalibi olub. Kata turnirində digər təmsilçimiz Ceyhun İsmayılov isə 16-17 yaşlı gənclər arasında birinci pilləyə qalxıb.

Kumite yarışlarında Hüseyn Məmmədli (14-15 yaşlı yeniyetmələr, 57 kq) qızıl, Murad Hacızadə (18-20 yaşlı gənclər, +84 kq) gümüş, Fidan Dadaşova (14-15 yaşlı yeniyetmələr, 47 kq), Mədinə Sadıxova (48 kq), Tural Yaqubov (hər ikisi 16-18 yaşlı gənclər, 68 kq), Müseyib Məmmədov (60 kq) və Emil Güləhmədov (hər ikisi 18-20 yaşlı gənclər, 84 kq) bürünc medallar qazanıblar.

* * *

Bakı İdman Sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan ənənəvi "Arpaçay Open" beynəlxalq karate turniri keçirilib. Turnirdə Azərbaycan komandası ilə yanaşı, Türkiyə, Rusiya, ABŞ, Gürcüstan, İran, İsrail, Özbəkistan, Qazaxıstan, Ukrayna və Çexiyadan 1100-dək idmançı qüvvəsini sınayıb.

Turnirdə fərdi kata, 6-11 yaşlı uşaqlar arasında fərdi və komanda kumite, 12-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclərin müxtəlif çəkilərdə kumite yarışları keçirilib.

Yekun nəticəyə görə, birinci yeri "Qara Qaplan" idman klubunun (11 qızıl, 13 gümüş, 20 bürünc medal) karateçiləri tutublar. "Arpaçay" idman klubunun üzvləri (11 qızıl, 10 gümüş, 9 bürünc) turniri ikinci, hesabında 8 qızıl, 2 gümüş və 3 bürünc medal olan "SKİF AZERBAIJAN" isə üçüncü pillədə başa vurublar.

* * *

Yanvarın 25-27-də Fransanın paytaxtında Karate1 Premyer Liqasının "Paris Open" mərhələsi keçirilib. Yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız turniri 1 gümüş medalla başa vurub. Milli komandanın lideri Rafael Ağayev (-75 kq) nüfuzlu turnirin gümüş medalına sahib çıxıb. Bundan başqa Rafael Ağayev Dünya Karate Federasiyasının (WKF) ötən mövsümün ən yaxşı idmançıları üçün təsis etdiyi "Grand Winners"in mükafatçılarından biri olub. Yarışda iştirak edən milli komandanın digər üzvlərindən Firdovsi Fərzəliyev (-60 kq), Rafiz Həsənov (-67 kq), Turqut Həsənov, Pənah Abdullayev (ikisi də -84 kq) və Nuranə Əliyeva (-50 kq) təsəllivərici görüşlərdə iştirak etsələr də nəticədə medal qazanmaq şansının əldən veriblər.

### Şahmat

Azərbaycanlı qrossmeyster Qədir Hüseynov Estoniyanın paytaxtı Tallinn şəhərində keçirilən Paul Keres memorialında uğurla çıxış edib. 11 ölkədən 88 şahmatçının iştirak etdiyi turnirdə Qədir Hüseynov keçirdiyi 9 oyundan 7 qələbə və 2 heç-heçə ilə blits turnirini birinci yerdə başa vurub. Memorial çərçivəsində keçirilən rapid yarışında 7 oyunda 6 xal yığan şahmatçımız üçüncü yeri tutub.

* * *

İtaliyanın Villorba şəhərində şahmat üzrə üçüncü "Vergani Cup" festivalı keçirilib. Ölkəmizi bu yarışda Ülviyyə Fətəliyeva (2301) təmsil edib. 9 turdan 5 xal toplayan zəka sahibimiz turnir cədvəlində 18-ci yerdə qərarlaşıb.

* * *

Hollandiyanın Veyk-an-Zee şəhərində ənənəvi "Tata Steel Masters-2019"un "Masters" turniri keçirilib. Dünya çempionu Maqnus Karlsen (Norveç) 9 xalla turniri birinci pillədə başa vurub. Artıq 81-ci dəfə keçirilən nüfuzlu turnirdə Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov da iştirak ediblər. Son turda şahmatçılarımızın rəqibləri Rusiya təmsilçiləri olublar. Şəhriyar Məmmədyarov Vladimir Fedoseyevlə, Teymur Rəcəbov isə Yan Nepomnyaşi ilə qarşılaşıb. Hər iki oyun heç-heçə yekunlaşıb.

Turnirin yekununda Teymur Rəcəbov 6,5, Şəhriyar Məmmədyarov 5 isə xal toplayıb.

### Futbol

Antalyada təlim-məşq toplanışında olan 19 yaşınadək futbolçulardan ibarət Azərbaycan yığması yoxlama oyunu keçirib. Norveçin "Tromse" klubunun müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşma 2:2 hesabı ilə başa çatıb. Yığmamızın heyətində Tural Bayramov və Sərhad Daşdəmir fərqləniblər.

### Voleybol

Voleybol üzrə kişilərdən ibarət Azərbaycan yığması Avropa çempionatının seçmə mərhələsi çərçivəsində sonuncu oyununu keçirib.

Seçmə mərhələnin "G" qrupunda qərarlaşan millimiz səfərdə İsveç yığmasının qonağı olub. İtaliyalı baş hakim Roberto Barisin idarə etdiyi oyun İsveç millisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb.

"G" qrupunda 17 xalla birinci pillədə qərarlaşan Yunanıstan yığması turnirin final mərhələsinə adlayıb.

### Stolüstü tennis

Macarıstanın paytaxtı Budapeştdə stolüstü tennis üzrə yeniyetmələr arasında beynəlxalq turnir keçirilib.

Turnirdə qızlardan ibarət komandamız uğurla çıxış edərək iki medal qazanıb. Yarışların ikinci günündə fərdi birincilikdə mübarizə aparan Arzu Aslanova gümüş medala sahib olub. Bundan əvvəl isə Arzu Aslanovanın, Mərziyyə Nurmətovanın və Aysu Ağayevanın yer aldığı komanda fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

### Qılıncoynatma

Macarıstanın paytaxtı Budapeştdə gənclər arasında qılıncoynatmanın sablya növü üzrə dünya kuboku yarışları keçirilib.

Turnirdə ölkəmizi Aysel Əhədova, Nərminə Cəfərova və Cavanşir Ağakişiyev təmsil ediblər. Qadın sablyaçıların mübarizəsində Nərminə Cəfərova qrup mərhələsində keçirdiyi 6 görüşdən 2-ni qalib başa vurmaqla pley-offa adlayıb. Nərminə Cəfərova 1/64 finalda Rusiya idmançısı Anna Korolyovaya 12:15 hesabı ilə uduzub. Digər sablyaçımız Aysel Əhədova isə qrupda keçirdiyi 6 görüşdən 4-də qalib gəlib. Təmsilçimiz 1/64 finalda İtaliya təmsilçisi Klaudia Rotiliyə 3:15 hesabı ilə məğlub olub.

Kişi sablyaçıların yarışında Cavanşir Ağakişiyev qrup mərhələsi çərçivəsində keçirdiyi 6 görüşdən 4-də qələbə qazanıb. Ağakişiyev 1/64 finalda Almaniya idmançısı Ralf Rommelspaçerə 12:15 hesabı ilə uduzub.

* * *

Rusiyanın İvanovo şəhərində 2004-2007-ci illər təvəllüdlü yeniyetmələr arasında qılıncoynatmanın şpaqa növü üzrə ikinci "Rusiyanın qızıl üzüyü" adlı komandalar arası açıq turnir keçirilib.

Qızların yarışında Alfiyə Abdinova, Azərin İdriszadə və Nazilə Rəhimovadan ibarət komandamız da iştirakçılar arasında yer alıb.

Yeniyetmə şpaqaçılarımız 7 komandanın mübarizə apardığı turnirdə bütün rəqiblərinə qalib gələrək finala yüksəliblər. Həlledici görüşdə məğlub olan idmançılarımız turniri ikinci pillədə başa vurublar.

* * *

Qılıncoynatmanın sablya növü üzrə qadınlardan ibarət Azərbaycan yığmasının üzvləri Sevil və Sevinc Bünyatova bacıları, Səbinə Kərimova Rusiyanın Novoqorsk şəhərindəki "İlqar Məmmədov adına Qılıncoynatma Mərkəzi"ndə keçirilən "Güclülərin turniri" adlı ümumrusiya yarışlarında iştirak ediblər. Təmsilçilərimizdən Sevil Bünyatova qrup mərhələsində keçirdiyi 6 görüşdən 3-də qalib gəlib. Sablyaçımız 1/16 finalda Kseniya İllarionovanı məğlub edib. S.Bünyatova 1/8 finalda Svetlana Karelovaya uduzub. S.Karelova digər idmançımız S.Kərimovanı da yarışdan kənarlaşdırıb.

Qrupda keçirdiyi 6 görüşdən 4-də qalib gələn Sevinc Bünyatova isə 1/16 finalda Aleksandra Klimovaya uduzub.

Yekun sıralamada Sevil Bünyatova yarışı 12-ci, Sevinc Bünyatova 20-ci, Səbinə Kərimova isə yarışı 27-ci yerdə başa vurub.

* * *

Qılıncoynatmanın şpaqa növü üzrə kişilərdən ibarət Azərbaycan millisinin üzvləri Ruslan Həsənov, Barat Quliyev, Kənan Məlikzadə və Xalid Əliyev Bəhreynin paytaxtı Manama şəhərində keçirilən gənclərin dünya kubokunun mərhələ yarışında iştirak ediblər.

Şpaqaçılarımızdan Ruslan Həsənov qrup mərhələsində keçirdiyi 5 görüşü qalib başa vurmaqla, mütləq nəticə ilə pley-offa yüksəlib. 1/16 finalda Küveyt idmançısı Xələf Əlmutairini məğlub edən Ruslan, 1/8 finalda Səudiyyə Ərəbistanı təmsilçisi Ömər Alakkas üzərində qələbə qazanıb. Təmsilçimiz yarımfinala yüksəlmək uğrunda görüşdə iordaniyalı İyad Odehə qalib gəlib. Yarımfinalda Qazaxıstan idmançısı Aleksandr Savinə qalib gələn R.Həsənov finalda Çex Respublikası təmsilçisi Yakub Yurka ilə qarşılaşıb. Rəqibinə uduzan R.Həsənov turnirin gümüş medalı ilə kifayətlənib.

Qrup mərhələsini 3 qələbə ilə başa vuran Barat Quliyev isə 1/32 və 1/16 finalda Səudiyyə Ərəbistanını təmsil edən rəqiblərini məğlub edib. Müvafiq olaraq, Əbdülkərim Alotaibi və Hüseyn Altavelə qalib gələn B.Quliyev 1/8 finalda Estoniyanı təmsil edən Yaron Kiroyaya uduzub.

Qrup mərhələsində 4 qələbə qazanan Xalid Əliyev isə 1/16 finalda bəhreynli Abdulla Abdulkərəm Mesferə uduzub. Qrupu 2 qələbə ilə başa vuran şpaqaçımız Kənan Məlikzadə isə 1/32 finalda Bəhreyn idmançısı Abdulla Albaluşiyə qalib gəlsə də, növbəti mərhələdə braziliyalı Aleksandr Kamarqoya uduzub.

* * *

ABŞ-ın Solt Leyk Siti şəhərində qadınlar arasında qılıncoynatmanın sablya növü üzrə dünya kubokunun mərhələ yarışı keçirilib. Turnirin sonuncu günündə komanda yarışında qalibin adına aydınlıq gəlib. Səbinə Kərimova, Sevil və Sevinc Bünyatova bacılarından ibarət komandamız 1/16 final mərhələsində Türkiyə yığmasına 45:44 hesabı ilə qalib gəlib. 1/8 finalda Fransa sablyaçılarına 25:45 hesabı ilə uduzan komandamız 9-16-cı yerlər uğrunda görüşdə İspaniyaya 21:45 hesabı ilə məğlub olub. Sablya üzrə qadınlardan ibarət yığma komandamız 13-16-cı yerlər uğrunda qarşılaşmada Honkonqa 42:45 hesabı ilə uduzsa da, gərgin keçən 15-ci yer uğrunda görüşdə Böyük Britaniya millisinə 45:44 hesabı ilə qalib gəlməyi bacarıb.

Beləliklə, sablyaçılarımız turnirdə 15-ci yeri tutublar.

### Qış polosu

İsveçrənin Sankt-Moritz şəhərində ənənəvi qış polosu üzrə "Snow Polo World Cup St. Moritz" dünya kuboku turnirinin həlledici oyunları keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə turnirdə ölkəmizi "Land of Fire" komandası təmsil edib.

Komandamız keçirdiyi 3 oyundan ikisində qalib gəlib. "Land of Fire" son oyunda turnirin 13 qat çempionu "Cartier" komandası ilə növbəti dəfə qarşılaşaraq 5:0 hesabı ilə qalib gəlib. Beləliklə, "Land of Fire" komandası turnirdə üçüncü yeri tutaraq Avropa polo meydanlarında Azərbaycanı layiqli təmsil edərək milli atçılıq idmanı tarixinə növbəti töhfəsini verib.

Bu turnir İsveçrənin ən məşhur qış kurortlarından biri olan Sankt-Moritz şəhərində ənənəvi olaraq 35-ci dəfə təşkil olunub. Bu dünya kuboku turniri həm də milli mədəniyyətimizin, qədim tariximizin və müasir inkişafımızın təbliği, ölkəmizin turizm potensialının tanıdılması üçün də xüsusilə əlamətdar olub.

### İdman dırmanması

Azərbaycan millisinin üzvü Tbilisidə keçirilən yeniyetmələr arasında idman dırmanması üzrə açıq çempionatda gümüş medal qazanıb.

Azərbaycanın yığma komandası yarışda üç idmançı ilə təmsil olunub. Boldrinq üzrə yarışda məşqçi Çingiz Tağızadənin rəhbərliyi ilə Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin (DGK İSM) "Gömrükçü" idman klubunun təmsilçisi Mədinə Abdullayeva uğurla çıxış edib. 2009-2010-cu illər təvəllüdlü idmançılar arasında qüvvəsini sınayan təmsilçimiz gümüş medala sahib olub.

Mədinə Abdullayeva ötən il ölkəmizdə idman dırmanmasının çətinlik növü üzrə keçirilən DGK İSM "Gömrükçü" idman klubunun açıq beynəlxalq birinciliyində də gümüş medal qazanıb.

**Formula 1**

# Sürət aləmi fərqli hadisələrlə zəngindir



Berni Ekklstoun Qran-Pri təşkilatçıları ilə “Kral yürüşlərinin” sahibi “Liberty Media” şirkəti arasında münaqişənin nizama salınmasında kömək etməyə hazır olduğunu bəyan edib. Formula 1 yarışlarının 16 Qran-Pri mərhələsinin promouterləri “Liberty Media” şirkətinin iş prinsiplərini tənqid edən rəsmi bəyanat yayıblar. Onlar, həmçinin FOPA adlanan Promouterlər Assosiasiyasının ətrafında birləşiblər.

Hazırda Formula 1-in fəxri sədri olan Ekklstoun bununla əlaqədar “Daily Mail” nəşrinə müsahibəsində deyib: “İnsanlar mənim bu prosesdə iştirakımı istəyirlərsə, hər şey onların özlərindən asılıdır. Mən şirkətin əməkdaşıyam və göstərişləri yerinə yetirəcəyəm. Onların istədiyi təqdirdə kömək etməyə hazıram. Ölüm ayağında yataqda uzanan insan kimi öz yaratdığım idmanın məhv olmasına tamaşa etmək istəmirəm”.

* * *

Formula 1-in sahibi, ABŞ-ın “Liberty Media” şirkəti Qran-Pri seriyası təşkilatçılarının narazılığı ilə üzləşib. Təşkilatçılar onların şərtləri təmin olunmayacağı təqdirdə, Kral yürüşlərindən imtina edəcəkləri ilə hədələyirlər.

Silverstoun, Montse, Barselona, Hokkenhayme və Mexiko mərhələlərinin təşkilatçıları narazı olanlar arasındadırlar. Yanvarın 28-də onların görüşü olub. Görüşdə narazı tərəflər öz fikirlərini səsləndiriblər.

* * *

Son bir ildə mətbuatda Formula 1 çempionatının Hollandiya mərhələsinin tezliklə keçiriləcəyi barədə şayiələr dolaşır. Onu Assen və ya Zandvort şəhərlərinin avtodromlarında keçirmək planlaşdırılır.

Assen layihənin reallaşdırılmasına da ciddi yanaşıb və təşəbbüs qrupu yaradıb. Təşəbbüs qrupu Zandvortu qabaqlamaq və Formula 1 çempionatının mərhələ yarışını keçirmək üçün hər cür səy göstərəcək. Bu barədə Formula 1-in nümayəndəsi Yost van Kölen məlumat verib.

“F1maximaal” Yost van Kölenin bu sözlərini sitat gətirib: “Biz “sarı jiletlər” deyilik, bir qrup biznesmenik. Hamımız, o cümlədən, mən könüllü şəkildə bu işlə məşğul oluruq. Sürprizi pozmaq istəmirəm, amma biz Assen trası üçün nə isə hazırlayırıq. Biz 2020-ci ildən gec olmayaraq, Formula 1-i Niderlanda qaytarmaq istəyirik. Əlbəttə, əsas məsələ budur ki, mərhələ ölkəyə qayıtsın. Zandvort avtodromu da yaxşıdır, lakin Assen variantı daha yaxşıdır. Məsələ təkcə yürüşün özündə deyil, həm də azarkeşlərdədir. Assenə daha çox fanat gələ bilər. Düşünürəm ki, hamı razı qalacaq”.

* * *

Cənubi Amerika ölkəsi Formula 1 çempionatının keçirilməsinə çalışmır. Formula 1-in sahibi “Liberty Media” Qran-Pri yarışlarının coğrafiyasını genişləndirir. 2020-ci ildə Formula 1 təqviminə Vyetnam qoşulacaq. Finlandiya barədə də şayiələr gəzir. Jurnalist Kristina Ziltanın sözlərinə görə, “Liberty” “Filippin Qran-Prisi” ticarət markasını qeydiyyata aldırıb.

Formula 1 Argentina Qran-Prisi arada fasilələr olmaqla 1953-cü ildən 1998-ci ilədək keçirilib. Əgər Argentina Qran-Prisi seriyanın cədvəlinə qayıtsa, çox güman, daha Santyaqo-del-Estero əyalətində yerləşən “Termas de Rio Hondo” trasında keçirilməyəcək.

Hazırda bu trasda “MotoGP” yürüşləri keçirilir. Əyalətin turizm naziri Rikkardo Sosa deyib ki, onların Formula 1 ilə birgə planları yoxdur.

* * *

Filippin Qran-Prisi ticarət markasının qeydiyyata alınması üçün müraciət təqdim edilib.

Yeni mərhələnin keçiriləcəyi tarix barədə rəsmi məlumat olmasa da, yerli KİV-lər yürüş traslarının arxitektoru German Tilkenin hələ ötən ilin noyabrında da Filippinə səfərindən, onun işləyib hazırladığı “Pradera Verde” trasının layihəsini büroya təqdim etməsindən yazırlar.

Trasın bir neçə konfiqurasiya variantı mövcuddur. Bunların arasında ən uzun olan “Grand Prix” variantına 22 döngədən ibarət 5013 metrlik dairə daxildir. Ən uzun düz yol 725 metrə bərabərdir.

Avtodromun 2021-ci il mövsümünədək inşası barədə söz-söhbətlər gəzsə də, tikintiyə başlanması faktı hələ ki, təsdiqlənməyib və təkcə layihə mövcuddur.

* * *

Formula 1 yarışlarında iki dəfə dünya çempionu olmuş Fernando Alonso öz aktivinə daha bir qələbə əlavə edib. Bu dəfə o, məşhur “24 saat Daytona” yürüşündə qalib gəlib.



Yağış üzündən qırmızı bayraqlar qaldırılaraq dayandırılmış yürüşdə 10 H-li “Cadillac” avtomobilində çıxış edən “Wayne Taylor Racing” komandasının heyəti qalib hesab edilib. Bu komandanın heyətinə Fernando Alonso ilə yanaşı Renger van der Zande, Kamui Kobayaşi və Cordan Teylor da daxildir.

10 nömrəli maşının heyətinə qələbə gətirən məhz yağış olub. Felipe Nasrın səhvindən istifadə edən Alonso yağış başlayana qədər yürüşdə liderliyi ələ keçirib. Finiş vaxtına hələ 2 saat qalırdı, lakin güclü yağışla əlaqədar yürüş dayandırılıb və son nəticədə yürüşü bərpa etməmək qərara alınıb. 31 H-li “Cadillac” avtomobilində çıxış edən Nasr və onun komanda yoldaşları Luis Felipe Derani və Erik Kerran ikinci nəticə göstəriblər. “Acura ARX-05” avtomobilində çıxış edən “Penske” komandasının Elio Kastroneveş, Rikki Teylor və Aleksandr Rossidən ibarət heyəti də podiuma qalxıb.

“24 saat Daytona” yürüşü yağışla əlaqədar ilk dəfə finiş vaxtına 7 saat qalmış dayandırılıb. Saat yarımlıq fasilədən sonra yürüş bərpa edilib. Həmin anda qələbə uğrunda “Penske” komandasının iki “Cadillac” və iki “Acura” avtomobilində çıxış edən pilotları mübarizə aparırdı. Lakin Xuan-Pablo Montoya, Beyn Kemeron və Simon Pajenonun daxil olduğu heyətin ikinci “Acura”avtomobili yürüşün 20-ci saatında texniki səbəblərə görə distansiyadan çıxıb.

* * *

Formula 1 çempionatındakı karyerasını başa vurduqdan sonra Niko Rosberq elektrik mühərrikli avtomobillərin təbliği ilə məşğuldur.

O, Formula E yarışlarına sərmayə yatırıb. N.Rosberg əmindir ki, vaxt gələcək, Formula 1 də elektrik mühərriklərinə keçəcək.

“Formula 1-də çıxış edərkən mən tamamilə bütün fikirlərimi öz işimin üzərində cəmləşdirmişdim. Bu mərhələ bitdikdən sonra mən ətrafa baxaraq fikirləşdim: “Daha nələr var?”, - deyə Niko Rosberq Davos İqtisadi Forumunda bildirib. “Hazırda mən tez hərəkətə keçməyi bacarmayanlara bunu öyrətməyə çalışıram. Fikrimcə, bu, mənim güclü cəhətimdir. Mən bunu Formula 1-də öyrənmişəm. Çünki orada hər şey sürətlə baş verir, hətta qərarların qəbulu belə. Avtomobil sənayesində bəzən söhbətlər çox, hərəkətlər isə az olur. Mən bu bacarığımı digər sahələrdə istifadə edə bilərəm. Fikrimcə, faydalı olar.

Əgər bütün dünyada elektrik mühərrikli və ya hidrogen yanacaqlı avtomobillər satılarsa, o zaman Formula 1-də əvvəlki kimi avtomobillər benzinlə yürüşəcəklərsə, bu, mənasızdır. Vaxt gələcək, Formula 1 dəyişməli olacaq.

Bir neçə il bundan əvvəl hamı “Ah bu elektrik mühərrikləri!” deyirdi. İndi isə daxili yanma mühərriklərinin ən sadiq pərəstişkarları vəziyyətə daha geniş prizmadan baxırlar. Mənim yeni həyatımda görüləcək çox işlərim var ki, daha mənə Formula 1 karyeramla bağlı suallar verməsinlər. Xeyr, mən yarışlar üçün darıxmıram. Fikrimcə, belə bir nailiyyət əldə etdikdən sonra getmək çox yaxşıdır. Bu, mənə irəli hərəkət etməkdə yardım edir və ola bilər ki, həyatımın sonunadək belə davam etsin”, - deyə Niko Rosberq bildirib.

* * *

Formula 1-in beynəlxalq sponsorluğunun rəhbəri Mürrey Barnett bildirib ki, seriyanın təşkilatçıları Çində ikinci Qran-Pri təşkil etmək, onu keçirilən Şanxay mərhələsinə əlavə etmək niyyətindədirlər.

Qeyd olunub ki, Pekində xüsusi ofisin açılışı da Formula 1 rəhbərliyinin planlarına daxildir.

“Biz qısamüddətli perspektivdə yox, təqvimin həddən artıq yüklənməsini nəzərə alaraq, burada ikinci yürüş keçirmək istəyirik. Belə ki, şübhəsiz, biz Çində daha bir Qran-Pri keçirməyin yolunu tapmaq istərdik. Biz yerli əhali arasında böyük maraq doğura biləcək bir çox amillərə diqqət yetiririk”, - deyə Mürrey bildirib.

Barnett qeyd edib ki, Formula 1 yeni mövsümdə “Renault” komandasının inkişaf üzrə pilotu olacaq Çin yürüşçüsü Çjou Quanyuyun irəliləməsini diqqətlə müşahidə edir.

“Biz onu Formula 1-də görmək istərdik. Son sözü komandalar deyəcək, mənim fikrimcə, onlar Çinin fantastik perspektivləri olmasını etiraf edirlər”, - deyə “Sports Mole” Mürreydən sitat gətirir.

* * *

Formula 1 çempionatının 2019-cu il mövsümündə “Force India” bolidinin rəngləri barədə şayiələr dolaşır.

Daha əvvəl “Force India” Keniyanın “SportPesa” bukmeker şirkəti ilə sponsor müqaviləsi imzalayıb. Gözlənildiyinə görə, “SportPesa” əməkdaşlığın birinci ilində “Force India”ya 8 milyon dollar, 2020-ci ildə 10 milyon dollar və əgər 2021-ci ildə bir yerdə işləsələr, 12 milyon dollar ödəyəcək.

“Force India”nın indiki baş sponsoru - BWT-nin aqibəti məlum deyil. BWT ilə müqaviləyə görə Formula 1 komandasının bolidinin rəngi çəhrayı olmalı idi.

“Sport Business”dən bildiriblər ki, onun mənbəyinin verdiyi məlumata görə, “Force India”nın bolidi göy-çəhrayı rənglərdə olacaq. Əgər bu informasiya gerçəkdirsə, deməli, “Force India” BWT ilə işləməyə davam edir.

* * *

“Mercedes” komandasının pilotu Lyuis Hemilton hesab edir ki, “Red Bull”un yürüşçüsü Maks Ferstappen Formula 1 yarışmasının 2019-cu il mövsümündə çempionluq uğrunda rəqabət aparmaq üçün tam təkmilləşib.

L.Hemilton deyib: “Maks ötən il ərzində stabillik göstərərək çox yaxşı çıxış edib. O, dəfələrlə bizimlə daban-dabana mübarizə aparıb, buna görə də əgər onun komandası öz vəzifəsinin öhdəsindən gələrsə və bizimlə daha güclü rəqabət apara biləcək platforma təqdim edərsə, o zaman əlbəttə ki, o, titul uğrunda mübarizəyə qoşulacaq”.

“Ferrari”nin pilotu Sebastyan Fettel “Mercedes”in britaniyalı yürüşçüsünün fikri ilə həmrəydir.

“Fikrimcə, Ferstappenin bundan ötrü bütün imkanları var. Bu keyfiyyətlərə malik olan bir-iki nəfər var. Heç şübhəsiz ki, Maks onlardan biridir”, - deyə “Sports Mole” S.Fetteldən sitat gətirir.

* * *

“Ferrari” yürüş akademiyasının rəhbərliyi öz pilotlarının qarşıdakı mövsüm üçün planları barədə danışıb. Burada təsdiq ediblər ki, Avropa Formula 3 seriyasının çempionu, akademiyaya yeni seçilmiş Mik Şumaxer Formula 2-də iştirak edəcək. Bu seriyada Mik Şumaxerlə bərabər Culiano Alezi və Kallum Aylott da mübarizə aparacaq.

“Ferrari” Formula 3-də özünün iki yetirməsi - Robert Şvartsman və Markus Armstronq ilə təmsil olunacaq.

Xatırladaq ki, bu, tarixdə ilk Formula 3 mövsümü olacaq. Bu seriya Avropa Formula 3 seriyası ilə GP3-ün birləşməsi nəticəsində yaranıb.

Gənclər proqramının digər pilotlarına gəldikdə, Entso Fittipaldi yeniyetmələrin regional seriyalarında, Canluka Petekof isə Formula 4-də iştirak edəcək.

* * *

Qadınların Formula W seriyasının təşkilatçıları iştirakçıların seçim proqramının ikinci hissəsinə start verildiyini elan ediblər. İlkin seçim mərhələsində dünyanın 30 ölkəsindən 100-dən çox namizəddən 60 nəfəri qalıb. Yekunda 18 yürüşçü qadın qalacaq və onlar may ayında başlanan debüt mövsümündə sükan arxasına keçəcəklər.

Pilotluğa namizəd qadınlar Avstriyanın Vaxaurinq avtodromunda üç günlük gərgin test məşğələlərinə toplaşacaqlar. Məşğələləri Aleks Vurs və onun atası tərəfindən Beynəlxalq Avtomobil Federasiyası İnstitutu üçün yaradılmış “Test and Training International” şirkətinin mütəxəssisləri keçirəcəklər.

Test proqramı təkcə pilotluq məsələləri ilə məhdudlaşmır. Komissiya namizədlərin fiziki hazırlığını və mətbuatla iş vərdişlərini qiymətləndirəcək, psixoloji və psixrometrik testləşdirmə aparacaq.

* * *

Formula 1 avtomobil yürüşləri televiziyası 2019-cu il mövsümü ərəfəsində keçirilən bütün testləri canlı efirdə nümayiş etdirəcək.

Bununla bağlı mətbuata açıqlamada məlumat verilib.

Translyasiyalar Formula 1 televiziyasının tətbiq etdiyi yenilikdir. Bu yayımlar vaxtı komandaların bolidlərinin testi barədə icmal şouları da göstəriləcək. Xatırladaq ki, testlər üzrə ilk qış sessiyası fevralın 21-dən 28-dək İspaniyanın Barselona şəhərində keçiriləcək. İkinci testlər də fevralın 26-dan martın 1-dək həmin məkanda təşkil olunacaq.

Formula 1 vəd edir ki, ona məxsus olan televiziyada proqramların sayı artırılacaq, o cümlədən canlı efirə geniş yer ayrılacaq. Tezliklə bu platformada Formula 1 yarışlarının yeddiqat çempionu Mixael Şumaxerin idmanda keçdiyi yoldan bəhs edən tammetrajlı yeni sənədli film də nümayiş etdiriləcək.

2018-ci il mövsümünün əvvəlindən etibarən Formula 1 televiziyasına 59 ölkədə abunə olmaq mümkün idi. 2019-cu il fevralın 18-dən isə bu siyahıya daha səkkiz ölkə - Kipr, Danimarka, Yunanıstan, Malta, Niderland, Norveç, Portuqaliya və İsveç də əlavə olunacaq.

# FUTBOL

## “Neftçi”ni zirvədən endirmək mümkün deyil



Ötən həftə futbol üzrə Azərbaycan Premyer Liqasında ikinci dövrəyə start verilib. Qış fasiləsindən sonra ölkə çempionatında mübarizə aparan 8 komanda ilk oyunlarını keçiriblər. Turun maraqlı qarşılaşması isə Tofiq Bəhramov adına Respublika stadionunda baş tutub. Son ölkə çempionu “Qarabağ” bu mövsümün lideri olan “Neftçi” ilə üz-üzə gəlib. Futbolsevərlərin maraqla gözlədiyi matç gözlənildiyi kimi gərgin anlarla yadda qalıb. Matçın ilk hissəsində vurulan iki qol 90 dəqiqənin tamamına qədər heçə-heçə üçün kifayət edib. Belə ki, “Qarabağ” matçda hesabı dəyişsə də, “Neftçi” ilk hissədə bərabərliyi təmin edən qolu vura bilib. Matçın daha bir yadda qalan məqamı baş hakim Rəvan Həmzəzadənin hər iki komandanın üzvünə qırmızı vərəqə göstərməsi olub. Bu görüşdən sonra Azərbaycan çempionluğuna ən real namizəd olan “Neftçi” ikinci pillədə qərarlaşan “Qarabağ”la 3 xal fərqi qoruyub.

***15-ci tur***

**2 fevral (şənbə)**

**“Keşlə” - “Səbail” - 0:3**
**Qollar:** Kevin Kupemba, 14, Elvin Yunuszadə, 53, Ağabala Ramazanov, 59

**“Zirə” - “Sabah” - 0:2**
**Qollar:** Marko Deviç, 47-pen, Rəşad Eyubov, 68

**3 fevral (bazar)**

**“Qarabağ” - “Neftçi” - 1:1**
**Qol:** Dani Kintana, 6 (1:0), Mamadu Mbodj, 30 (1:1)

**Qırmızı vərəqələr:** Anton Krivotsyuk, 70 (“Neftçi”), Qara Qarayev, 90+2 (“Qarabağ”)
**Hakimlər:** Rəvan Həmzəzadə, Knyaz Əmiraslanov, Vüqar Bayramov, Səbuhi Bayramov

**“Qəbələ” - “Sumqayıt” - 1:0**
**Qol:** Stiven Monroz, 84
**Hakimlər:** Əliyar Ağayev, Akif Əmirəli, Rza Məmmədov, Kamal Umudlu.

***Turnir cədvəli***

| | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|
| 1. Neftçi | 15 | 10 | 4 | 1 | 27-11 | 34 |
| 2. Qarabağ | 15 | 9 | 4 | 2 | 33-15 | 31 |
| 3. Səbail | 15 | 7 | 3 | 5 | 19-14 | 24 |
| 4. Sabah | 15 | 6 | 2 | 7 | 14-20 | 20 |
| 5. Qəbələ | 15 | 5 | 5 | 5 | 18-18 | 20 |
| 6. Sumqayıt | 15 | 4 | 3 | 8 | 13-21 | 15 |
| 7. Keşlə | 15 | 3 | 3 | 9 | 16-26 | 12 |
| 8. Zirə | 15 | 2 | 4 | 9 | 12-27 | 10 |

## İngiltərə 1-ci, Azərbaycan 47-ci pillədə

Azərbaycan futbol klublarının 2018-ci ildə transferlərə xərclədikləri və qazandıqları məbləğ açıqlanıb. Klublarımız transferlərə 2,1 milyon dollar xərcləyiblər. Azərbaycan bu göstərici ilə dünyada 47-ci yerdədir. Siyahıya 1 milyard 981,3 milyon dollarla (ötən illə müqayisədə 20,5 faiz çox) İngiltərə klubları başçılıq edir. İspaniya klubları 1 milyard 352,5 milyon dollarla (85,2 faiz çox) ikinci, İtaliya isə 848,9 milyon dollarla (29.8 faiz çox) üçüncü pillədə qərarlaşıblar.

Klublarımızın transfer gəlirləri isə 1,4 milyon dollar təşkil edib. Ölkəmiz bu göstəricidə 73-cü sıradadır. Gəlirə görə isə ilk sırada 936,3 milyon dollarla Fransa (45.4 faiz çox), ikinci yerdə 935.2 milyon dollarla İngiltərə (42.7 faiz çox), üçüncü yerdə isə 908 milyon dollarla İspaniya (8 faiz çox) qərarlaşıb.

Qeyd edək ki, ötən illə müqayisədə Azərbaycan təmsilçilərinin ümumi transfer xərcləri 61,6 faiz azalıb, gəlirləri isə 95,7 faiz artıb.

## *Biletlərin satış tarixi açıqlandı*

2020-ci il futbol üzrə Avropa çempionatının oyunlarına bilet almaq arzusunda olanların müraciəti üçün qeydiyyat saytı fəaliyyətə başlayıb. UEFA-nın rəsmi saytında yayılan xəbərə görə biletlərin satışına 2019-cu il iyunun 12-də başlanılacaq.

Müraciətlərin qəbulunun müddəti 2019-cu il iyunun 12-dən iyulun 12-dək davam edəcək. Futbol həvəskarlarının arzusu püşkatma yolu ilə yerinə yetiriləcək. Bununla yanaşı, bilet əldə etmək hüququ müraciətin verilmə tarixindən asılı olmayacaq. Müraciətlərin baxılmasına avqustun sonunadək yekun vurulacaq.

***Futbol üzrə İsveçrə millisinin keçmiş müdafiəçisi Ramon Veqa FİFA prezidenti vəzifəsinə növbəti seçkilərdə Cianni İnfantinoya rəqib olmağa hazırlaşır.***

Karyerası ərzində Sürixin “Qrasshopper”, Londonun “Tottenhem” və Qlazqonun “Seltik” klublarının formasını geyinən futbolçu İsveçrə millisinin heyətində 23 oyun keçirib. Hazırda İngiltərədə biznes fəaliyyəti ilə məşğul olan R.Veqanın C.İnfantinoya qarşı seçki yarışında şansları ilkin mərhələdə olduqca aşağı dəyərləndirilir.

## İnfantinonun rəqibi var




Bu barədə Almaniyanın “Süddeutsche Zeitung” qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, hazırda sabiq futbolçu bu il iyunun 5-də keçiriləcək növbəti prezident seçkilərində namizədliyini irəli sürməyi planlaşdırır. “Aldığım böyük dəstəyi və müsbət reaksiyaları nəzərə alaraq, bu addımın məsuliyyətini ciddi qəbul edirəm. İyunda keçiriləcək FİFA prezidenti seçkilərində mübarizəyə qoşulmaq üçün hazırda futbol dünyasında tələbin hansı səviyyədə olduğunu araşdırıram”, - deyən R.Veqa seçkilərdə C.İnfantinoya rəqib ola biləcəyini söyləyib.

FİFA prezidenti vəzifəsinə seçkilərlə bağlı namizədlərin qeydiyyatı fevralın 5-də başa çatacaq. Həmin tarixədək R.Veqanın namizədlik barədə fikri qətiləşərsə, bu, FİFA-ya üzv olan 211 federasiyanın ən azı beşi tərəfindən dəstəklənməlidir.

FİFA prezidentliyinə namizədlik üçün hələlik heç kim rəsmi şəkildə müraciət etməyib.



## “Amasiya” İdman Sağlamlıq Kompleksində

### veteran futbolçunun xatirəsi futbol turniri ilə yad edildi

***Yanvarın 31-də Azərbaycanın əməkdar məşqçisi, SSRİ-nin idman ustası Valeri Hacıyevin xatirəsinə həsr olunmuş turnirə yekun vurulub. Gənclər və İdman Nazirliyi, Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, AFFA, Futbol üzrə İxtisaslaşdırılmış Uşaq Gənclər Olimpiya Ehtiyatı Məktəbi və “Amasiya” İdman Sağlamlıq Kompleksinin təşkilatçılığı ilə keçirilən yarışda mükafatçılar müəyyənləşib. Turnirdə iki qrup üzrə 8 komanda yarışıb.***

“A” qrupunda “Sabah”, “Təhsil”, “Sumqayıt” və “Qarabağ”, “B” qrupunda isə “Neftçi” PFK, “Neftçi” İSM, “Amasiya”, “Sərhədçi” komandaları çıxış ediblər. Qrupda ilk iki yeri tutan komandalar mükafatlar uğrunda yarışıblar. Əvvəlcə üçüncü yer uğrunda görüşdə “Amasiya” İK və “Sabah” FK komandaları üz-üzə gəliblər. İlk hissədə rəqib qapısından bir qol keçirən “Amasiya” futbolçuları ikinci hissədə daha iki dəfə fərqləniblər - 3:0. Bu nəticədən sonra “Amasiya” turnirin bürünc medallarına yiyələnib. Çempionluq uğrunda qarşılaşmada “Neftçi” PFK “Qarabağ”la yarışıb. İlk hissədə 2:1 hesabı ilə qalib gələn “ağ-qaralar” fasilədən sonra da təşəbbüsü əldən verməyiblər. Belə ki, İslam Kərimovun yetirmələri ikinci hissədə vurulan qolların sayını artırıblar. Matçın sonunda 7:3 hesabı ilə qalib gələn “Neftçi” PFK xatirə turnirinin qalibi adını qazanıb. Yarış başa çatdıqdan sonra turnirin rəsmi bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən futbol rəsmiləri bu cür turnirlərin uşaq futbolunun inkişafında böyük rol oynadığını, gələcəkdə ənənə halını alacağını bildirdilər. Qeyd edildi ki, turnirdə iştirak edən komandaların yeniyetmə futbolçularının hər biri gələcəyin ulduzlarıdır.






### “Ölkə futbolunun keçmişi parlaq və uğurlu olub”

***Kazbek Tuayev (Futbol üzrə İxtisaslaşdırılmış Uşaq Gənclər Olimpiya Ehtiyatı Məktəbinin direktoru):***



- Bildiyiniz kimi, Valeri Hacıyev Azərbaycan futbolunda tanınmış simalardan sayılır. 1966-cı SSRİ çempionatında bürünc medal qazanan “Neftçi” komandasının heyətində çıxış edən futbolçular arasında onun da böyük xidmətləri olub. Valeri sözün əsil mənasında ömrünü Azərbaycan futboluna həsr edən fədailərdən sayılır. “Neftçi”nin heyətində uzun müddət bir yerdə oynamışıq. Onun barədə yalnız bunu deyə bilərəm ki, Valeri Hacıyev öz dövrünün ən yaxşılarından olub. Bu yarış onun xatirəsinə həsr olunub. Qoy gələcək nəsil bilsin ki, ölkə futbolunun keçmişi parlaq və uğurlu olub. Bu turnirdə çıxış edən futbolçular üçün Valeri Hacıyevin keçdiyi yol örnəkdir. Biz futbol veteranları inanırıq ki, bu uşaqların xoş sorağı gələcəkdə Azərbaycan futbolunun uğurları ilə yanaşı gələcək.

### “Məqsəd uşaq və yeniyetmələr arasında futbolun kütləviliyini artırmaqdır”

***İslam Kərimov (“Neftçi” PFK-nın məşqçisi):***



Yarış yüksək səviyyədə təşkil edilmişdi. Yarışın keçirilməsində məqsəd uşaq və yeniyetmələr arasında futbolun kütləviliyini artırmaqdır. Fürsətdən istifadə edib yarışın təşkilində bizə göstərdiyi köməkliyə Futbol üzrə İxtisaslaşdırılmış Uşaq Gənclər Olimpiya Ehtiyatı Məktəbinin direktoru Kazbek Tuayevə, “Amasiya” İdman Sağlamlıq Kompleksinin rəhbəri Fikrət Həsənova və digər rəsmilərə minnətdarlığımı bildirirəm.

### “Futbolu mən də sevirəm”

***Səbinə Hacıyeva (Valeri Hacıyevin qızı):***



- Çox şadam ki, bu gün atamın xatirəsinə həsr olunmuş yarışda iştirak edirəm. Atam barədə bu gün ən xoş sözləri dedilər. Mən fəxr edirəm ki, mənim belə atam olub. Futbolu mən də sevirəm. Uşaq vaxtında onunla birlikdə məşqlərə gedirdim. Görünür, futbola olan marağım bundan irəli gəlir. Bu turnirdə çox istedadlı uşaqlar gördüm. İnanıram ki, gələcəkdə onlar daha məşhur komandalarda oynayacaq, ölkəmizi daha böyük turnirlərdə layiqincə təmsil edəcəklər.

## Qapıçımız ikiillik müqaviləyə imza atıb

Azərbaycan futbolçusu Emil Balayev karyerasını Qazaxıstanda davam etdirəcək. 25 yaşlı qapıçı “Tobol” klubu ilə ikiillik müqavilə imzalayıb. Futbolçu cari mövsümün əvvəlində Bakının “Səbail” klubunda çıxış edib. Qeyd edək ki, hazırda Türkiyədə təlim-məşq toplanışında olan komanda ölkə çempionatının turnir cədvəlində 53 xalla 3-cü pillədə qərarlaşıb.

ТОБОЛ
ФУТБОЛЬНЫЙ КЛУБ



Dünya_idmanı



# 6 qat Olimpiya çempionuna təkliflər var

Şort-trek üzrə əslən koreyalı altıqat Olimpiya çempionu, Viktor An Rusiya yığmasında məşqçi işləyə bilər.

Ötən il idmançı karyerasını başa vuraraq Rusiyadan vətəninə qayıdan Viktor Anın yenidən qayıtmaq ehtimalı var. Ruslar koreyalı idmançını ölkə yığmasına məşqçi və məsləhətçi kimi dəvət etmək istəyirlər. 6 qat Olimpiya çempionuna Koreyadan da təkliflər var.

Qeyd edək ki, Viktor An ailəsinin xahişi ilə öz ölkəsinə qayıdıb.

# 15 milyardlıq oyun

ABŞ-da bir matçdan 15 milyard dollar gəlir götürməyi planlaşdırırlar.

Amerika futbolunun final qarşılaşmasında məhz bu qədər gəlir gözlənilir. Atlanta şəhərinin 71 minlik tamaşaçı tutumuna malik "Mersedes-Benz" stadionunda keçiriləcək Super Boul adlanan görüşdə "Los-Angeles Rams" və "Nyu Englənd" komandaları üz-üzə gələcək. Təkcə teleyayımdan 180 milyon dollar qazanc əldə ediləcək. Ən bahalı bileti 325 min dollar olan finala ən ucuz bilet 2420 dollardır.



# Aktrisa təhqir etdi, sonra üzr istədi

Məşhur Bollivud aktrisası və İngiltərənin "Arsenal" klubunun brend səfiri Eşa Qupta "Mançester Yunayted"lə oyun zamanı (1:3) komandanın hücumçusu Aleks Ayuobini təhqir edib.



Aktrisa "İnstagram" səhifəsində "Varun_Gupta17" adlı istifadəçi ilə nigeriyalı futbolçunun oyununu müzakirə etdikləri yazışmanın skrinşotunu paylaşıb. Paylaşımda yazılır: "Kənar yarımmüdafiəçilərlə bağlı problemi həll etmək lazımdır. Mən artıq İvobi sifətli qorillanı cinahda görmək istəmirəm. O çox bərbaddır", - deyə "Varun_Gupta17" yazıb.

Eşa Qupta isə cavabında: "Hahaha. Düzünü desəm, bilmirəm niyə o vaxtının çoxunu ehtiyatda keçirmir?", - yazıb.

Sonda aktrisa futbolçudan üzr istəyib.

# Uduzdu və evlilik təklifi etdi

İtaliyalı boksçu Karmine Tommazone meksikalı döyüşçü Oskar Valdesa uduzduqdan sonra sevdiyi qıza evlilik təklif edib.

İtaliyalı yarımyüngül çəkidə WBO versiyası uğrunda ABŞ-da keçirilən qarşılaşmada rəqibinə texniki nokautla uduzub. Dördüncü raundda 34 yaşlı idmançı iki dəfə nokdauna düşüb. Lakin məğlubiyyətdən üzülməyən Karmine Tommazone sevdiyi qıza ürəyini açaraq, ona üzük hədiyyə edib.

# Pulsuz transfer olunanlar

Hazırda futbol dünyasında transferlərə milyonlar xərclənir. Amma elə futbolçular da var ki, onların transferlərinə görə pul ödənilməyib. Özü də bu futbolçuların arasında kifayət qədər məşhur olanları da vardır.

Keçidinə görə pul ödənilməyən ən yaxşı 10 transferi təqdim edirik:

10. Demba Ba: "Vest Hem" - "Nyukasl"
9. Raul: "Real" - "Şalke"
8. Denis Lou: "Mançester Yunayted" - "Mançester Siti"
7. Luiş Fiqu: "Real" - "İnter"
6. Stiv Makmanaman: "Liverpul" - "Real"
5. Robert Levandovski: "Borussiya" (Dortmund) - "Bavariya"
4. Henrik Larsson: "Seltik" - "Barselona"
3. Esteban Kambiasso: "Real" - "İnter"
2. Sol Kempbell: "Tottenhem" - "Arsenal"
1. Andrea Pirlo: "Milan" - "Yuventus"

# "Formula 1" pilotlarının əmək haqları açıqlandı

***"Formula 1" pilotlarının 2019-cu il mövsümü üçün əmək haqlarının məbləği açıqlanıb.***

Almaniyanın "Mercedes" komandasını təmsil edən Lyuis Hemilton ən yüksək ödənişli pilot adını qazanıb. Belə ki, Britaniyalı idmançının illik maaşı 57 milyon dollar təşkil edəcək.

Sizə ilk onluqda yer alan və yüksək maaş verilən idmançı pilotların siyahısını təqdim edirik:

***"Formula 1" pilotlarının mövsüm maaşları (dollar)***

1. Lyuis Hemilton ("Mercedes") - 57 milyon
2. Sebastyan Fettel ("Ferrari") - 45 milyon
3. Daniel Rikardo ("Renault") - 17 milyon
4. Maks Ferstappen ("Red Bull") - 13,5 milyon
5. Valtteri Bottas ("Mercedes") - 8,5 milyon
6. Kimi Raykonen ("Sauber") - 4,5 milyon
7. Niko Hülkenberq ("Renault") - 4,5 milyon
8. Karlos Sayns ("McLaren") - 4 milyon
9. Şarl Lekler ("Ferrari") - 3,5 milyon
10. Serxio Peres ("Racing Point") - 3,5 milyon

Qeyd edək ki, Formula-1 üzrə builki dünya çempionatına martın 17-də Avstraliyadakı "Albert Park" trasında start veriləcək. Mövsümə dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək Abu-Dabi Qran-Pri yarışları ilə yekun vurulacaq.



# Təyyarənin qalıqları tapıldı




Fransalı dənizçilər yanvarın 21-də yoxa çıxan təyyarənin qalıqlarını tapıblar.

"Kardiff Siti"nin yeni transferi Emiliano Salanı daşıyan şəxsi təyyarənin iki oturacağı Suraynvill şəhərciyinin sahillərində aşkar edilib. Kotentin yarımadasında yerləşən bu şəhərin çimərliyindən tapılan iki oturacağın məhz futbolçunu aparan təyyarəyə aid olduğu bildirilir.

Xatırladaq ki, "Kardiff Siti" argentinalı hücumçunu 22,5 milyon avro qarşılığında "Nant"dan transfer edib.

28 yaşlı forvard klubla rəsmi müqavilə bağladıqdan sonra Fransaya bəzi işlərini həll etmək üçün qayıdıb. O, özəl təyyarə ilə geri dönərkən La Manş boğazında radardan itib.

Qənbər Ağayev, Əlləmdar Məmmədov, Arif Məmmədov, Əlikram Əliyev, Qaşəm Nəcəfzadə, Dayandur Sevgin, Sərvan Hüseynoğlu, Səxavət Talıblı, Aslan Şirəliyev və Murad Qoçuoğlu

**Səməd İsmayılovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

olimpnews.az – sizin saytınız





Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19